# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Qarabağda bərpa olunan iqtisadi fəaliyyət Azərbaycanın inkişafını sürətləndirir"**





SƏS

№ 150 (7318)

22 avqust 2025-ci il.
Qiyməti 60 qəpik


# Dirçəlişin yeni ünvanı - KƏLBƏCƏR!




Avqustun 21-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində olublar

# Avropa siyasi elitasının kollapsı: Vaşinqton görüşlərinin mesajları




## Sağlam gənclik güclü dövlətin təməlidir




## Ənənəvi poçtun transformasiyası: zaman tələb edir ki...




## Qızılın qiyməti kəskin dəyişəcək: Bu səbəblərdən




## Necə peşə seçməli ki, işsiz qalmamalı?




## Ucuzlaşma, yoxsa bahalaşma: Ərzaq bazarında vəziyyət necədir?



# Dirçəlişin yeni ünvanı - KƏLBƏCƏR!

**Avqustun 21-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərdə yaradılan şəraitlə tanış olub, buraya köçən sakinlərlə görüşüblər. Sonra dövlətimizin başçısı sakinlərə mənzillərin açarlarını təqdim edib.**

## Avqustun 21-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində olublar

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 21-də Kəlbəcər rayonunun Vəng kəndində "AzərEnerji" ASC-nin "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyalarının açılışında iştirak ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 21-də Ağdərə rayonunun Kolatağ kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar. Dünən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərə rayonunun Vəngli kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, burada Vəngli və Kolatağ kəndlərinin sakinləri ilə görüşüblər.

Avqustun 21-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Azərbaycan Respublikası Prezidentinin Kəlbəcər rayonunda xüsusi nümayəndəsi Bəşir Hacıyev kompleksdə yaradılacaq şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, bu yaşayış kompleksinin ərazisi 10 hektara yaxın olacaq. Buraya ümumilikdə 807 ailənin köçürülməsi nəzərdə tutulur. Yaşayış kompleksində 128 birotaqlı, 304 ikiotaqlı, 293 üçotaqlı, 82 dördotaqlı olmaqla 807 mənzil inşa ediləcək. Burada 4 mərtəbəli 26 binanın inşası planlaşdırılır. Binaların 1-ci mərtəbəsində məişət və ticarət obyektləri yaradılacaq. Yaşayış kompleksində sakinlərin rahatlığı və asudə vaxtlarının səmərəli təşkili üçün idman meydançaları, velosiped yolları salınacaq, istirahət guşələri, söhbətgahlar, uşaqlar üçün oyun guşələri inşa olunacaq. Binaların hamısı daimi su, elektrik enerjisi və yüksəksürətli internetlə təchiz ediləcək. Ərazidə, həmçinin geniş miqyasda yaşıllıq zonalarının salınması nəzərdə tutulur.



**Azərbaycan Prezidenti: Naxçıvan Muxtar Respublikasında dəmir yolunu tam müasirləşdirəcəyik**






**Prezident İlham Əliyev: Laçın şəhərində kanat yolu gələn il hazır olacaq**



Dünən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda görülən işlərlə tanış olublar. Dövlətimizin başçısı bu yolun 13,5-ci kilometrliyində inşa edilmiş və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışını edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına və birinci xanıma görülmüş və hazırda həyata keçirilən işlər barədə məlumat verdi. Xatırladaq ki, 2021-ci ilin avqustunda bu yolun təməlqoyma mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.

Qeyd edək ki, dövlətimizin başçısının tapşırığına əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən ən mühüm infrastruktur layihələrindən biri də uzunluğu 82 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur. Bu yolun 56 kilometrini Toğanalı-Kəlbəcər hissəsi, 26 kilometrini isə Kəlbəcər-İstisu hissəsi təşkil edir.

Avtomobil yolunun 13,5-ci kilometrliyindən Murovdağ silsiləsi başlayır. Beləliklə, yolun ən mühüm hissəsi Murovdağ silsiləsindən keçir. Burada yüksəklik 1700 metrdən 3250 metrədək artır. Qış fəslində avtomobil yolunun təhlükəsiz istismarı üçün Murovdağ silsiləsinin altından tunelin tikintisi məqsədəuyğun hesab edilib. Murovdağ tuneli dünyanın ən uzun avtomobil tunellərindən biridir. Belə ki, uzunluğuna görə bu tunel dünyada 18-ci, Avropada 5-ci, MDB ölkələri arasında isə birincidir. Tunel iki gediş və iki gəliş olmaqla 4 hərəkət zolaqlı olacaq. Tuneldə qazma, həmçinin sağ və sol hissələri birləşdirən 38 keçid tuneli üzrə işlər artıq başa çatdırılıb. Layihə çərçivəsində Murovdağ tunelindən əlavə ümumi uzunluğu 2636 metr olan daha dörd tunel də tikilir. Bu tunellərdə əsas tikinti işləri, o cümlədən qazma, kəmər-beton və digər texniki işlərin çoxu artıq yekunlaşdırılıb.

Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində ümumilikdə işlərin 87 faizi icra olunub.

Bu avtomobil yolu Göygöl rayonunun Toğanalı kəndindən başlayaraq işğaldan azad edilmiş Kəlbəcərdən keçir və məşhur İstisu istirahət zonasına qədər uzanır. Yol rayon mərkəzi ilə yanaşı, bölgənin yaşayış məntəqələrinə rahat və təhlükəsiz nəqliyyat əlaqəsini təmin edəcək, kənd təsərrüfatının, turizmin inkişafına töhfəsini verəcək. Belə çətin coğrafi şəraitdə bu cür strateji əhəmiyyətə malik layihənin icrası bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş rayonlarımızın qısa müddətdə bərpası, o cümlədən həmin bölgələrimizdə müasir yol-nəqliyyat infrastrukturunun yaradılması Azərbaycan dövlətinin diqqət mərkəzindədir.

Ardı Səh. 3



# Dirçəlişin yeni ünvanı - KƏLBƏCƏR!

## Avqustun 21-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində olublar



**Əvvəli Səh. 2**

Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər şəhər parkının təməlini qoyub. Şəhərin müfəssəl Baş planına uyğun olaraq layihələndiriləcək yeni park kompleksi təxminən 11 hektar ərazini əhatə edəcək. Bu sahənin təxminən 9 hektarında yaşıllıqlar salınacaq. Parkda rayonun ictimai və mədəni həyatında baş verən tədbirlərin təşkili üçün xüsusi zonalar, idman və sağlamlıq guşələri, həmçinin uşaqlar üçün əyləncə və ekstremal macəra sahələri yaradılacaq.

## *Prezident: Sülh müqaviləsinin paraflanması faktiki olaraq Ermənistan-Azərbaycan qarşıdurmasına son qoyur*










Layihəyə əsasən, parkın ərazisində yerüstü avtomobil dayanacağı, relsli xizək yolu, restoranlar, kafelər, amfiteatr və digər zəruri infrastruktur obyektlərinin inşası da nəzərdə tutulur.

Bir sözlə, burada həm şəhər sakinlərinin, həm də qonaqların asudə vaxtlarını mənalı və rahat keçirmələri üçün hərtərəfli şərait təmin olunacaq. Dağlarla əhatələnmiş, əsrarəngiz təbiəti ilə seçilən Kəlbəcər şəhərində inşa olunacaq bu yeni istirahət mərkəzi bölgənin gözəlliyinə yeni rəng qatacaq və turizm potensialını daha da gücləndirəcək.

Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası"nın açılışında iştirak edib.

Kəlbəcər Azərbaycanın ən zəngin təbiətə malik bölgələrindən biri olmaqla yanaşı, arıçılıq sahəsində qədim və dəyərli ənənələri yaşadan diyarlarımızdandır. Rayonun dağlıq relyefi, nadir və çoxçeşidli flora örtüyü, eləcə də yüksək dağ çaylarının ətrafında formalaşan əlverişli mikroiqlim burada istehsal olunan balın həm dad, həm keyfiyyət, həm də müalicəvi xüsusiyyətlərinə müsbət təsir göstərən əsas amillərdir. Arıçılıq Kəlbəcər əhalisinin əsas məşğulluq sahələrindən biri olub və bu peşə nəsildən-nəslə ötürülərək bu günə qədər qorunub saxlanılıb. Bu sahədə uzun illər fəaliyyət göstərmiş Sabir Mustafayevin ailə təsərrüfatı bunun bariz nümunələrindəndir. Vətən müharibəsindən sonra o, ailəsi ilə birgə doğma torpağına qayıdaraq təsərrüfatını yenidən qurub. Onların istehsal etdiyi bal Kəlbəcərin ən ucqar və səfalı yaylaqlarında bitən çiçəklərdən toplanır.

2021-ci ildə Prezident İlham Əliyevin Kəlbəcərə səfəri zamanı bu təsərrüfata baş çəkməsi və Kəlbəcər balı ilə bağlı söylədiyi fikirlər arıçılıqla məşğul olan ailələr üçün mühüm stimul və ruh yüksəkliyi yaradıb.

Bu diqqətin davamı olaraq, Kəlbəcər şəhərinin mərkəzində "Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası" fəaliyyətə başlayıb. Burada bal ilə yanaşı, propolis, arı südü, çiçək tozu, mum və digər təbii məhsullar təqdim olunur. Gələcəkdə bu məhsulların "Made in Azerbaijan" brendi ilə beynəlxalq bazarlara çıxarılması və onlayn satış platformasının yaradılması planlaşdırılır. Mağaza yalnız satış məkanı deyil, həm də Kəlbəcər balının tanıdılması, arıçılıq məhsullarının brendləşdirilməsi və bu sahənin inkişafı üçün platforma funksiyasını daşıyır.

Artıq 40 ildən çoxdur arıçılıqla məşğul olan Mustafayevlər ailəsi bu sahəyə dərin bağlılıqla yanaşır. Onlar ənənəni qorumaqla yanaşı, müasir üsulların tətbiqi ilə təsərrüfatı inkişaf etdiriblər. Ailənin gənc üzvlərinin də bu işə maraq göstərməsi təsərrüfatın davamlılığı baxımından mühüm əhəmiyyət daşıyır.

***Ardı Səh. 4***

Əvvəli Səh. 3

Hazırda təsərrüfatda 400-ə yaxın arı ailəsi var və bu təsərrüfat ölkənin nüfuzlu ailə təsərrüfatlarından biri kimi tanınır.

Bu layihə təkcə arıçılığın inkişafı baxımından deyil, eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi dirçəlişin təmin olunması, ekoloji cəhətdən təmiz məhsulların istehsalı və regionun kənd təsərrüfatı potensialının gücləndirilməsi baxımından da mühüm əhəmiyyətə malikdir.

Açılışdan sonra Prezident İlham Əliyev Sabir Mustafayevlə söhbət etdi.

Sabir Mustafayev: Xoş gəlmisiniz, bizə şərəf vermisiniz. Allah Sizi var eləsin.

Prezident İlham Əliyev: Bilirsən, mən balınızı da təbliğ edirəm. Həm özüm hər gün yeyirəm, həm də xarici qonaqlara göndərirəm.

Sabir Mustafayev: Bəli, bilirəm. Çox təşəkkür edirəm. Siz bizə böyük stimul verdiniz. Oğlum başqa sahəni seçmişdi, diplomat olmaq istəyirdi, beynəlxalq münasibətlər üzrə. Sizin gəlişinizdən, Kəlbəcər balı haqqında xoş sözlərinizdən sonra artıq bu sahəni seçdi və qərara aldı ki, Kəlbəcər balını xarici bazara çıxaracaq.

Prezident İlham Əliyev: Bu, artıq brend olacaq.

Sabir Mustafayev: Ermənilər 2019-cu ildə burada - Siz durduğunuz yerdə festival keçiriblər.

Prezident İlham Əliyev: Amma onlar burada yaşamırdılar.

Sabir Mustafayev: Az sayda yaşayırdılar. Bir il sonra "Dəmir yumruq" öz sözünü dedi.

Prezident İlham Əliyev: Əlbəttə.

Sabir Mustafayev: Ermənilər burada bir şənlik təşkil etdilər. Sizin Şuşada Cıdır düzündə, armudu stəkanda, özü də paxlava ilə çay içməyiniz ürəyimdən tikan çıxardı. Şənlik təşkil etdikləri bu yerdə Kəlbəcər balı ilə çay içməyiniz çox yaxşı olar.

Prezident İlham Əliyev: Bəli, gəl burada da şəkil çəkdirək.

Sabir Mustafayev: Bəli, çəkdirək. Təşəkkür edirəm. Çox sağ olun, bizə şərəf verdiniz. Allah Sizi qorusun. Allah şəhidlərimizə rəhmət eləsin.

Prezident İlham Əliyev: Sağ olun.



# Dirçəlişin yeni ünvanı - KƏLBƏCƏR!

**Avqustun 21-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində olublar**

Prezident İlham Əliyev avqustun 21-də Kəlbəcər şəhərində 3-cü yaşayış kompleksinin təməlini qoyub. Yaşayış kompleksinin ümumi ərazisi 7,6 hektar olacaq. Burada 4 və 5 mərtəbəli 29 bina tikiləcək. Kompleksdə 476 mənzilin inşası planlaşdırılıb ki, onlardan da 8-i birotaqlı, 176-sı ikiotaqlı, 169-u üçotaqlı, 123-ü isə dördotaqlı olacaq.

Buraya köçürüləcək ailələrin rahatlığı və məişət məsələlərinin həlli üçün kompleksdə bütün zəruri infrastruktur qurulacaq. Belə ki, burada məişət və ticarət obyektləri, futbol meydançası, istirahət guşələri, söhbətgahlar, uşaq oyun meydançaları, velosiped yolları, yerüstü avtomobil dayanacağı yaradılacaq. Binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin ediləcək. Ərazidə geniş abadlıq və yaşıllıq işləri görüləcək.

"Artıq Zəngilana qədər dəmir yolunun inşası uğurla davam edir, yəqin ki, gələn il başa çatacaq." Bu sözləri Prezident İlham Əliyev Kəlbəcər şəhər sakinləri ilə görüşdə deyib.

Dövlətimizin başçısı əlavə edib: "Biz indi Naxçıvan Muxtar Respublikasında dəmir yolunu tam müasirləşdirəcəyik. Ermənistan ərazisində də dəmir yolunun tikintisi nəzərdə tutulur. Yəni, Ermənistan bu öhdəliyi də üzərinə götürüb və bu, bizim növbəti tarixi uğurumuzdur".

Dövlətimizin başçısı qeyd edib ki, Laçın şəhərində kanat yolu yəqin ki, gələn il hazır olacaq. "İkinci kanat yolu Xankəndi-Şuşadır, onun da təməlini qoyduq. Üçüncü kanat yolu isə Kəlbəcərdə olacaq", - deyə dövlətimizin başçısı əlavə edib.

"Ermənistanla sülh müqaviləsinin müəllifi də bizik, o bəndlərin tərtibatında da bizim mövqeyimiz hər zaman əsas götürülmüşdür. Bu sənədin paraflanması faktiki olaraq Ermənistan-Azərbaycan qarşıdurmasına son qoyur. Bununla bərabər, bizim tarixi diyarımız olan Naxçıvanla quru bağlantısı da təmin edildi", - deyə dövlətimizin başçısı bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistan-Azərbaycan normallaşması prosesi demək olar ki, başa çatıb və imzalanmış sənədlər bizim maraqlarımızı tam təmin edir. Dövlətimizin başçısı vurğulayıb: "Biz istədiyimizə nail olmuşuq, mənfur Minsk qrupu artıq son günlərini yaşayır. Faktiki olaraq o, heç bir fəaliyyət göstərmirdi və göstərə də bilməzdi. Ancaq hüquqi cəhətdən mövcud idi, indi onun da sonu yaxınlaşır".







*Prezident İlham Əliyev: Mənfur Minsk qrupu artıq son günlərini yaşayır*






# Sağlam gənclik güclü dövlətin təməlidir

Prezident İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın Gəncəyə səfəri zamanı şəhər stadionunda aparılan tikinti işləri ilə tanış olmaları təsadüfi deyil. Dövlət başçısının siyasətində bölgələrin inkişafı, xüsusilə də gənclərin sağlam ruhda böyüməsi əsas prioritetlərdəndir. Çünki dövlətin gücü ilk növbədə sağlam gəncliyə, sağlam düşüncəli vətəndaşa söykənir. Xalq arasında deyildiyi kimi: "Sağlam bədəndə sağlam ruh olar." Bu hikmətli kəlam əsrlərin sınağından keçib. Sağlam bədən yalnız idmanda güclənmir, həm də mənəvi möhkəmlik, əxlaqi təmizlik və vətən sevgisi yaradır. Stadionlar, idman kompleksləri, Olimpiya mərkəzləri məhz bu





Yusif Quliyev

məqsədə xidmət edir - gəncliyi həm fiziki, həm də ruhi cəhətdən güclü yetişdirmək.

Son illərdə Azərbaycanın müxtəlif bölgələrində müasir idman mərkəzləri istifadəyə verilib. Bu gün hər bir gəncin idmanla məşğul olması üçün şərait yaradılıb. Nəticələr də göz önündədir: Azərbaycan idmançıları beynəlxalq arenalarda parlaq qələbələr qazanır, dövlətimizin üçrəngli bayrağını yüksəklərə qaldırır.

Bunun ən canlı nümunələrindən biri futbol sahəsindədir. "Qarabağ" komandamızın bu günlərdə Çempionlar Liqasının pley-off mərhələsində Macarıstan təmsilçisinə 3:1 hesablı möhtəşəm qələbəsi bütün ölkədə və dünyada Azərbaycanı sevənlərdə böyük sevinc yaratdı. Bu qələbə yalnız idman nəticəsi deyil, həm də milli qürurun ifadəsidir. "Qarabağ"ın adı elə özü-özlüyündə tarixi Zəfərimizin, dirçəlişimizin, güclü iradəmizin simvoludur. Hər belə uğur gənclərə ruh, cəmiyyətə inam verir.

Futbol qədər digər idman növlərində də son illər qazanılan uğurlar dövlətin idmana göstərdiyi diqqətin bariz nümunəsidir. Bir neçə misallar da çəkmək olar. Məsələn: Cüdo üzrə dünya çempionu Hidayət Heydərovun uğurları Azərbaycanı dünya arenasında tanıtdı. Güləş sahəsində, xüsusilə sərbəst və yunan-Roma güləşində idmançılarımız Avropa və dünya çempionatlarında dəfələrlə qızıl medallar qazanaraq xalqımızın idman şöhrətini yüksəldiblər. Şahmatda gənc istedadlarımız, o cümlədən qadınlardan Günay Məmmədzadə və kişilərdən Şəhriyar Məmmədyarov beynəlxalq turnirlərdə yüksək nəticələr əldə etdilər. Paralimpiya oyunlarında isə Azərbaycan atletləri rekord sayda medal qazandılar və bütün dünyaya sübut etdilər ki, sağlam ruh üçün heç bir məhdudiyyət yoxdur.

İdman komplekslərinin başqa bir mühüm vəzifəsi də gəncləri pis vərdişlərdən qorumaqdır. Gənc boş vaxtını küçədə yox, idman zalında keçirəndə narkomaniya, aludəçilik, mənasız əyləncələr ona yaxın düşə bilmir. İdman insana nizam-intizam, iradə, məqsədyönlülük və ən əsası, mübarizə ruhu aşılayır. Bu isə həm sağlam fərdin, həm də güclü vətənpərvər vətəndaşın formalaşması deməkdir. Məhz 44 günlük "tarixi Qələbədə" biz bir daha şahidi olduq. Azərbaycanın bölgələrində tikilən hər bir Olimpiya kompleksi əslində bir "ümid işığıdır" - sağlam gələcəyin, güclü gəncliyin işığı. İdmançılar yalnız medallar gətirmir, həm Azərbaycanı xaricdə təmsil edirlər və həm də idman xalqın ruhunu möhkəmləndirirlər. Ona görə də deyirik ki, "Sağlam gənclik güclü dövlətin təməlidir".

# Mustafa Destici: "Zəngəzur dəhlizi dünya birliyi üçün xüsusi əhəmiyyətə malikdir"




***Zəngəzur dəhlizinin açılması Türkiyə, Türk dünyası və bütün dünya birliyi üçün xüsusi əhəmiyyət kəsb edir. İndiki mərhələdə ayrı-ayrı şirkətlər və ümumilikdə dövlətlərin gələcəkdə bu marşrutdan istifadə etmək istədikləri zaman seçici yanaşma ilə qarşılaşması üçün bu marşrutun işləmə mexanizminin bütün detallarının işlənib hazırlanması çox vacibdir.***

Bu sözləri AZƏRTAC-ın müxbirinin sualını cavablandıran Türkiyənin Böyük Birlik Partiyasının (BBP) sədri Mustafa Destici deyib.

Siyasətçi özünə sual verib: "Bəs dəhlizi idarə edəcək şirkət nə vaxtsa hər hansı ölkədən gələn yükləri məhdudlaşdırmağa və ya tamamilə bloklamağa çalışsa necə olacaq?". Desticinin fikrincə, məhz bu səbəbdən Bakı, Ankara və ya hər hansı digər tərəfin maraqlarının tam təmin edilməsi üçün Zəngəzur dəhlizinin iş rejimi ilə bağlı bütün detalları əvvəlcədən razılaşdırmaq vacibdir.

BBP rəhbəri ABŞ Prezidenti Donald Trampın administrasiyasının Azərbaycanla bağlı məhdudiyyətləri aradan qaldırmaq qərarını alqışlayıb. "Türkiyə və Azərbaycan iki müstəqil dövlət olsalar da, biz vahid xalqın parçasıyıq. Azərbaycanın sevinci bizim də qəlbimizdə əks-səda verir", -deyə o vurğulayıb.

Eyni zamanda, Ermənistan və onun havadarları tərəfindən Azərbaycan torpaqlarının uzunmüddətli işğalı illərində törədilmiş cinayətləri unutmamağa çağıran Destici bildirib ki, cəmi bir neçə milyon əhalisi olan kiçik dövlət qonşu ölkənin bir hissəsini ələ keçirə bilməyəcək.

"Nəhayət, İrəvanın hazırkı rəhbərliyi qonşu dövlətlərə qarşı təxribat xarakterli addımlardan və aqressiv ritorikadan əl çəkərək Azərbaycan və Türkiyənin gücünü dərk edir. Bu, həmçinin 1915-ci il hadisələri, Türkiyə və Azərbaycan bayraqlarının yandırılması ilə bağlı hərəkətlərə aiddir", - deyə siyasətçi bildirib. O, Cənubi Qafqazın gündəmində olan bütün məsələlərin regiondankənar aktorların iştirakı olmadan həll edilməsini ideal variant adlandırıb.

# "Qarabağda bərpa olunan iqtisadi fəaliyyət Azərbaycanın inkişafını sürətləndirir"




"Qarabağda bərpa olunan iqtisadi fəaliyyətin ölkə iqtisadiyyatına təsiri çox geniş və çoxşaxəlidir. İşğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq və bərpa prosesləri təkcə həmin bölgənin inkişafını təmin etmir, eyni zamanda Azərbaycanın ümumi iqtisadi strategiyasına yeni dinamika gətirir. Bu fəaliyyətlər kənd təsərrüfatından sənayeyə, nəqliyyatdan turizmə qədər bir çox sektoru əhatə edir və ölkənin dayanıqlı inkişafına xidmət edir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Emin Qəribli deyib.

Onun sözlərinə görə, əvvəlcə kənd təsərrüfatı sahəsini xüsusi qeyd etmək lazımdır. Qarabağ torpaqları yüksək məhsuldarlığı ilə seçilir və kənd təsərrüfatı üçün çox əlverişli şəraitə malikdir. Uzun illər istifadəsiz qalmış ərazilərin yenidən əkin dövriyyəsinə qaytarılması ölkənin ərzaq təhlükəsizliyini gücləndirəcək, idxaldan asılılığı azaldacaq və kənd təsərrüfatı məhsullarının ixrac potensialını artıracaq. Bu isə ticarət balansına müsbət təsir göstərəcək və valyuta gəlirlərinin artmasına səbəb olacaq: "İkinci mühüm istiqamət sənaye və istehsal sahəsidir. Qarabağda sənaye parkları və azad iqtisadi zonaların yaradılması planlaşdırılır. Bu zonalara yerli və xarici sərmayələrin cəlb edilməsi yeni istehsal müəssisələrinin fəaliyyətə başlamasına şərait yaradacaq. Nəticədə həm daxili bazar güclənəcək, həm də ixrac üçün rəqabətqabiliyyətli məhsullar istehsal ediləcək. Bu da Azərbaycanın sənaye sektorunun şaxələnməsinə və iqtisadiyyatın neftdən asılılığının azalmasına xidmət edəcək. Nəqliyyat və logistika infrastrukturunun qurulması da Qarabağın iqtisadi potensialını artıran əsas amillərdəndir. Bölgədə yeni avtomobil yolları, dəmir yolları və hava limanlarının istifadəyə verilməsi Azərbaycanın tranzit imkanlarını genişləndirəcək. Qarabağın strateji mövqeyi nəzərə alındıqda, bu regionun regiondaxili və beynəlxalq nəqliyyat qovşağına çevrilməsi ölkənin logistika sahəsində rolunu gücləndirəcək və əlavə iqtisadi dividendlər qazandıracaq.

Turizm sektoru da xüsusi vurğulanmalıdır. Qarabağın zəngin təbiəti, mədəni irsi və tarixi abidələri bu bölgəni gələcəkdə turizm mərkəzinə çevirə bilər. İnfrastrukturun bərpası və təhlükəsizlik təmin olunduqdan sonra Qarabağa yerli və xarici turist axınının artması gözlənilir. Bu isə xidmət sektorunun inkişafını, yeni iş yerlərinin açılmasını və əlavə gəlir mənbələrinin yaranmasını təmin edəcək. Sosial baxımdan da Qarabağda bərpa olunan iqtisadi fəaliyyət mühüm nəticələr doğuracaq. Yeni iş yerlərinin yaradılması, əhalinin bölgəyə qayıdışı, yaşayış məntəqələrinin bərpası və sosial xidmətlərin inkişafı insanların rifah səviyyəsini yüksəldəcək. Bu proses təkcə Qarabağ əhalisinə deyil, bütövlükdə ölkə iqtisadiyyatına müsbət təsir göstərəcək, sosial sabitliyi möhkəmləndirəcək.

Qarabağın iqtisadi potensialı Azərbaycanın ümumi iqtisadi strategiyasının ayrılmaz hissəsinə çevrilir. Burada həyata keçirilən bərpa və inkişaf layihələri ölkənin iqtisadi şaxələnməsinə, dayanıqlı artıma və beynəlxalq iqtisadi mövqeyinin güclənməsinə xidmət edəcək. Qarabağda canlanan iqtisadi həyat, həm regional, həm də milli miqyasda böyük bir iqtisadi dönüş nöqtəsi olacaq".

***Ziya Hikmətoğlu***

# Ənənəvi poçtun transformasiyası: zaman tələb edir ki...

***Poçt xidməti və poçtalyon fiquru mənim xatirimdə həmişə Nazim əmini canlandırır, poçt barədə yazanda, danışanda uşaqlığımı onunla birgə xatırlayıram, elə də uzaq keçmişi yox, cəmi 30 il əvvəli. Nazim əminin özünəməxsus sürətli yerişi vardı, çiynindən asılmış brezent çantası, çantadan aşıb-daşan rəngarəng markalı məktublar, teleqramlar, qoltuğundakı qəzet-jurnal, ayaqla gəzdiyi onlarla küçə, girdiyi yüzlərlə ev - onu belə xatırlayıram. O hamının ailə üzvü idi, bir gün valideynlərimizə məktub ya teleqram, başqa gün bizim abunə olduğumuz maraqlı "Göyərçin" jurnalını, o biri gün sevimli "Tumurcuğ"umuzu gətirirdi.***





Məncə, poçtalyonlar o zamanın sosial şəbəkəsi idi. Onlar ünsiyyətin, sosiallaşmanın ayrılmaz hissəsi idi. Nazim əminin qonşu ölkələrdə dərc olunan jurnalları, almanaxları gətirməsini elə həsrətlə gözləyirdik ki... O bizim dünya ilə körpümüz idi. İndi təəccüblənirəm, amma o zaman bizim üçün adi idi, hansı evə hansı gün məktub gələcəyini, kimin hansı qəzetə, jurnala abunə olduğunu əzbər bilirdi. Məktubda ünvan səhv yazılsa belə doğru ünvana çatdırırdı, çünki adbaad, evbəev hamını tanıyırdı.



Poçtunu daşıdığı hamının dostu idi poçtalyon. Gözü yazını seçməyən qocaların məktub oxuyanı, yazı yazmağı bilməyənlərin mirzəsi idi onlar. Kiminin evində nahara dəvət edilirdilər, kiminin evində isti sacın, təndirin çörəyinə, qaynar samovarın pürrəngi çayına qonaq olurdular. Qızmar yay günlərində küçədən keçəcək poçtolyon üçün soyuducuda daima sərin su, buz kimi qarpız saxladan babamı gülümsəyərək xatırlayıram bu yazını yazdıqca...



Ünsiyyət vasitələri insanın mövcud olduğu tarixdən bu günə qədər həm də sosial təkamül hesab edilir. Poçt göyərçinləri, günəşin doğması və batması vaxtına uyğun vədələşmək, teleqraf, teleqram, faks, teletayp, məktub kimi ünsiyyət vasitələri əslində sosiallaşmanın ilkin nümunəsidir. Rabitə texnologiyalarının inkişafı ilə bu sahədə yenilik durmadan artdı və günümüzdəki texnologiya əjdahası - internet yarandı.1990-cı illərin sonu internetin mülki vətəndaşların istifadəsinə verilməsindən sonra bu əsrarəngiz texnologiya möcüzəsi bütün insanların həyatında ən vacib element oldu. Beləcə, ənənəvi poçt sistemi transformasiyaya uğrayaraq online müstəviyə keçdi.

Düşünün, rəqəmsal sistemə keçməzdən əvvəl ünsiyyət qurmaq üçün müəyyən vaxta ehtiyacımız var idi, əvvəl ya məktubla, ya telefonla görüş təyin edirdik, vaxt-vədə yetişəndə görüşür, sosiallaşırdıq. Həyat normal axarında idi, tələsmirdik, qaçmırdıq, yorulmurduq. Məktub göndərdiyimiz adamdan 1 ay sonra məktub almağımız bizə normal görünürdü. Lakin indi bir neçə saniyə ərzində dünyanın istənilən nöqtəsindəki tanışımızla ünsiyyət qura bilirik, mesajla, adi zənglə, görüntülü zənglə və s. Mesajımıza 1 dəqiqə gec cavab alanda səbirsizlənirik, hövsələmiz daralır. Başqa ölkədəki tanışımıza göndərdiyimiz məktubumuzun cavabı üçün 1 ay yol gözlədiyimiz vaxtlar bizə nağıl, yuxu təsiri bağışlayır. Haradan hara gəldik, elə deyil?

Texnologiya o qədər sürətlə inkişaf edir ki bəzən özümüz də onun sürətinə yetişə bilmirik. Elə bu sürət, bu transformasiya poçtalyonların ayağını kəsdi küçələrdən, evlərdən. Bir zamanların ən çox axtarılan adamları indi gözəgörünməz oldu. Zamanla poçt sektorunda işçi sayı da azaldı, elektron poçt və online xidmətlər bu sahədə ciddi durğunluq yaratdı. Ənənəvi məktub poçtları azaldığı üçün işçilərə tələbat da azaldı, poçtolyonların yerini yavaş-yavaş kuryerlər tutdu. Telefonumuz, kompyuterimiz poçtalyonumuz oldu bizim.

Zənnimcə, Azərbaycan poçtunun ən çətin və həm də ən şərəfli dövrü II Dünya müharibəsi illərinə təsadüf edir. Bu illərdə xüsusilə poçtalyonların fədakarlığını qeyd etməmək olmaz. Həmin dövrdə poçt işçilərinin üzərinə ikiqat məsuliyyət düşürdü, çünki poçt göndərişlərinin həcminin artması və əsgər məktublarının vaxtında ünvanlara çatdırılması, rabitənin qurulması bütün mənalarda məsuliyyət tələb edirdi. Hərbi poçt xidməti də böyük məsuliyyət tələb edən vəzifə idi, hərbi sirrin yayılmaması üçün cəbhəyə göndərilən məktublar, qurulan rabitə əlaqələri xüsusi kodlar və ünvanlar ilə işarələnirdi.

Müharibə dövründə poçtalyon işləmək həm də möhkəm iradə tələb edirdi. Bunu da hər adam bacarmırdı, cəbhədən gələn qara xəbərin ağırlığına dözməyərək işindən uzaqlaşan poçtalyonlar da olub. Üçbucaq əsgər məktublarını sevinclə daşıyan poçt işçiləri "qara kağız" gətirəndə sarsıntı keçirir, aylarla, illərlə əsgər məktubu daşıdığı ailəyə ölüm xəbəri verməyin əzabını yaşayırdılar. O dövrdə poçtalyonlar ən çox arzulanan qonaq idi, amma məktubların arası kəsiləndən sonra poçtalyon arzuedilməyən qonaq olurdu, "qəfil gələr, qara xəbər gətirər" qorxusu olurdu ailələrdə. O ailələrin dərdini onlarla birgə çəkən bir adam da vardı, yad idi, amma doğma adam idi - poçtalyon.

Qeyd etmək yerinə düşər ki, həmin illərdə poçtalyonların mənzil şəraitinin yaxşılaşdırılması da dövlətimizin prioritetlərindən biri olub. Rabitənin, poçt daşınmalarının gecikməməsi üçün poçtalyonlar poçt şöbələrinin yaxınlığında evlə təmin olunurdular, bu mənzillər adətən dövlət balansında olan çoxmənzilli binalardan ayrılırdı. Şəhərin mərkəzində evi olan poçtalyonlar kifayət qədər çox idi. Rayonlarda, kəndlərdə poçt şöbələri tikilərkən binanın yanında mütləq poçtalyon üçün mənzil də inşa edilirdi. Çətin bölgələrdə işləyən poçtalyonlar üçün maaşdan əlavə ödənişlər olurdu, onlar atla, motoskl, velosipedlə təmin olunurdular. İlboyu gərgin işləyən poçt işçilərinin məzuniyyətini sanatoriyada keçirməsi üçün putyovka-göndəriş verilirdi. Poçtalyonlar "Əməkdar rabitəçi", "Sosialist əməyi qəhrəmanı" fəxri adı, "Qırmızı əmək bayrağı ordeni", "Fəxri fərman" və s. mükafatlarla təltif edilirdi.

Zaman dayanmır. Zaman heç kimə, heç nəyə güzəşt eləmir, əksinə, sürətlə axır, axdıqca texnoloji yeniliklər baş verir, ənənəvi xidmətlərdə transformasiya yaranır. İnternet və mobil rabitənin ixtirası, geniş yayılması da poçt xidmətindəki transformasiyanı labüd etdi. Elektron poçtlar məktubları əvəz etdi, messencerlər teleqramı, sosial şəbəkələr isə bir-birini tanımadan məktublaşan insanları. Tanımadığın bir ünvana məktub yazmaq, cavab gözləmək, beləcə uzaqlarda tanımadığın tanışlar qazanmaq 40-50 il əvvəl nə qədər əyləncəli idisə, internetin inkişafı ilə meydana çıxan virtual dostluqlar da bir o qədər maraqlı oldu.

Amma zamanın tələbinə uyğunlaşmağı bacaran poçt sistemi tarixə gömülmədi, itibbatmadı. Rəqəmsallaşma poçt xidmətini də virtual xidmətlər fenomeninə çevirdi. Poçt şöbələri yalnız məktub daşımadı, yalnız qəzet-jurnal mübadiləsi ilə məşğul olmadı, rəqəmsal bank, ödəniş və logistika mərkəzinə çevrildi. Azərbaycanın milli poçt operatoru Azərpoçt da dövrün tələblərinə ayaq uydurdu, zamanla ayaqlaşdı, ənənəvi poçt sistemində inqilab etdi desək, yanılmarıq. İndi Azərpoçt ənənəvi poçt xidmətləri ilə yanaşı, daha çağdaş yollar - rəqəmsal həllər də təqdim edir. Müştərilər öz göndərişlərinin statusunu onlayn yolla izləyə bilirlər, SMS və e-mail vasitəsilə məlumatlandırma xidmətindən istifadə mümkündür, Azərpoçt-un saytından və mobil tətbiqindən onlayn ödəniş xidmətlərinin əlçatanlığı var.

Həmçinin rəqəmsal maliyyə xidmətləri sayəsində poçt kartı və onlayn bank xidmətlərindən yararlanmaq mümkündür, vətəndaşlar E-Pul sistemi vasitəsilə sürətli pul köçürmələri edə bilir, Azərpoçt e-commerce platforması vasitəsi ilə həm yerli, həm də xarici onlayn sifarişlərin çatdırılması həyata keçirilir, poçt şöbələrində vətəndaşlar elektron imza xidmətlərini əldə edə bilirlər. Bir sözlə, Azərpoçt artıq təkcə məktub və bağlama daşıyan qurum deyil, həm də rəqəmsal bankçılıq və e-xidmət platforması rolunu oynayan milli brenddir.

Poçtların zamanın tələbinə ayaq uydurması bir az da qlobal kuryer şirkətlərinin artması, bazarda boy göstərməsi və güclənməsi sayəsində oldu. UPS, DHL, FedEx, SF Express, TNT Express kimi fenomenlər bazarda gücləndikcə dövlət poçtları sözün yaxşı mənasında modernləşməyə və transformasiyaya məcbur qaldı. Beynəlxalq poçt, yükdaşıma və sürətli çatdırılma xidmətlərində dünya markası olan qlobal kuryer şirkətləri ilə ayaqlaşmalı olan dövlət poçt xidmətləri qiymətlərini də buna görə tənzimləməli olur. Bu isə adət etdiyimiz qiymətlərin bahalaşması, əlçatanlığın azalması deməkdir. Çünki, vətəndaş üçün dövlət poçtu qiymətlərnin ucuz olması baxımından sərfəli idi, amma etiraf etmək lazımdır ki, kuryer şirkətlərində qiymətlər daha yüksəkdir.

Doğrudur, dövlət poçt xidməti hər baxımdan sərfəlidir, ən ucqar bölgələrdə belə poçt şöbələrinin olması hamı üçün əlçatanlığından xəbər verir, amma bəzən sürətli xidmət imkanları zəif olur. Sürət əsrində istehlakçını razı sala bilmək üçün xidmətlərin də sürətlənməsi əsas şərtlərdəndir. Qlobal kuryer şirkətləri öz xidmətinin əsasən şəhərlərdə, biznes sektorunda, o cümlədən nisbətən baha qiymətlərlə təklif edir, dövlət poçtu isə hər kəs üçün bərabər imkan yaradır, ölkənin ən ucqar kəndlərində belə xidmət göstərir.

Poçt rabitəsi strateji sahədir, dövlətin nəzarətində olduğu üçün etibarlılığı da alternativlərinə nəzərən daha çoxdur. Hər nə qədər özəl kuryer şirkətləri yaransa da, daha çevik, daha dinamik xidmət təklif etsələr də, dövlət poçt şəbəkəsi olmasa ölkənin rəsmi informasiya mübadiləsi çətinləşər. Poçt xidməti dövlət və vətəndaş arasında körpüdür. Rəqəmsallıq zamanın tələbidir, amma bu tələb bizi ənənəmizdən, tariximizdən qoparırsa milli poçt sistemi bizi tariximizə bağlayır. Çünki rəqəmsallıq insanları təməl ehtiyacdan - ünsiyyətdən uzaqlaşdırır, poçt isə ənənəvi ünsiyyət vəd edir. Unutmayaq ki, poçt məktubları, markalar və ənənəvi rabitə formaları həm də mədəni irs deməkdir. Ənənəni qorumaq, irsinə sahib çıxmaq milli kimliyin qorunması deməkdir.

***Lalə Mehralı***

***Yazı, "Azərpoçt" MMC-nin Mətbuat Şurası ilə birgə keçirdiyi "Müasir dünyada və Azərbaycanda ənənəvi poçtun transformasiyası" mövzusunda müsabiqəyə təqdim olunur.***

# Avropa siyasi elitasının kollapsı: Vaşinqton görüşlərinin mesajları

Son günlər Vaşinqtonda keçirilən görüşlər dünya siyasətində yeni reallıqları bir daha ortaya qoydu. Xüsusilə də, ABŞ Prezidenti Donald Trampın Avropa İttifaqı liderləri ilə görüşü Avropanın içində olduğu dərin siyasi böhranı açıq şəkildə nümayiş etdirdi. Bu görüş həm də Avropaya böyük siyasi mesaj idi. İllərdir ki, dünya siyasətində ikili standartlarla olmazın pisliklərini törədən həmin bu avropalı "liderlər", indi etdiklərinin cəzasını çəkirlər. Xüsusilə Ukraynadakı qanlı müharibəni alovlandıran bu tiplər, keçmiş ABŞ prezidenti, 81 yaşlı yaddaşını itirmiş Co Baydenlə birlikdə minlərlə günahsız insanın qanına bais olublar. Üstəlik bu siyasi bitmişlər Ukraynada "yuyulan" milyard dollarlıq silah ticarətindən də böyük qazanclar əldə ediblər. Bu gün Ağ Evdə D.Trampın qarşısında körpə günahkar formada təzim edən bu tiplər həm də "qoca qitənin" dünya siyasətindəki etimad və çəkisini də yerin altına soxublar.

### Avropada liderlik böhranı, siyasi iflas mənzərəsi

Artıq sirr deyil ki, Avropa siyasi elitası son illər ciddi zəifləmə dövrünü yaşayır. Qitənin aparıcı dövlətlərində siyasi qeyri-sabitlik, parçalanma və liderlik böhranı müşahidə olunur. Nə Almaniya, nə Fransa, nə də digər böyük dövlətlər beynəlxalq münasibətlərdə söz sahibi olmaq iqtidarında deyillər. Vaşinqton görüşündə Trampın sərgilədiyi münasibət bunu daha da aydın göstərdi. O, Avropa İttifaqı liderlərini sanki tələbə masasının arxasında əyləşdirib "dərs keçirdi". Avropa liderləri isə yalnız dinləyici rolunda iştirak edərək, hər hansı təşəbbüs göstərə bilmədilər. Bu, Avropanın siyasi nüfuzunun nə qədər aşağı düşdüyünün bariz sübutudur.

Əslində, Avropa bu gün təkcə ABŞ qarşısında deyil, ümumilikdə beynəlxalq arenada təsir imkanlarını itirib. Böyük dövlətlər arasında balans yarada bilmir, qlobal proseslərə yön verə bilmir. Bu isə qitənin uzunmüddətli perspektivdə siyasi iflası deməkdir.

### İlham Əliyevin Vaşinqtonda bərabər səviyyədə dialoqu

Tam fərqli mənzərə isə Azərbaycan Prezidenti İlham Əliyevlə Donald Trampın görüşündə müşahidə olundu. Prezident İlham Əliyev Vaşinqtonda Trampın yanında əyləşərkən ortaya qoyduğu mövqeylə diqqət çəkdi. Burada heç bir asılılıq, heç bir ikinci dərəcəli münasibət yox idi.

Tramp necə oturmuşdusa, İlham Əliyev də elə oturmuşdu, yəni dövlət başçısı kimi, özünəinamlı, qətiyyətli və ləyaqətli şəkildə.





Bu, təsadüfi görüntü deyildi. Bu, Azərbaycanın beynəlxalq aləmdə qazandığı statusun, Prezident İlham Əliyevin liderlik keyfiyyətlərinin və ölkəmizin yüksələn nüfuzunun bariz göstəricisi idi.

Müqayisə aparsaq daha dəqiq görmək mümkündür. Bir tərəfdə zəif, özünü müdafiə etmək iqtidarında olmayan Avropa liderləri, digər tərəfdə isə regionda söz sahibi olan, dünya gücləri ilə bərabərhüquqlu dialoq aparan Prezident İlham Əliyev. Bu müqayisə özü-özlüyündə çox şeyi izah edir.

### Azərbaycanın artan rolu

### Avropanın çöküşü

Vaşinqton görüşləri həm də onu göstərdi ki, XXI əsrin yeni siyasi düzəni formalaşır. Bu düzəndə Avropa siyasi elitası getdikcə arxa plana keçir, əvəzində Azərbaycan kimi dövlətlər önə çıxır. Prezident İlham Əliyevin siyasi qətiyyəti, prinsipial mövqeyi və milli maraqları qətiyyətlə müdafiə etməsi ölkəmizi beynəlxalq münasibətlərdə etibarlı tərəfdaşa çevirib. Avropa siyasi elitası liderlik böhranı içində çökür. Amma Azərbaycan Prezidenti İlham Əliyev güclü dövlət başçısı obrazı ilə beynəlxalq siyasətdə öz yerini möhkəmləndirir. Bu, həm Azərbaycanın gələcəyi, həm də regionun sabitliyi baxımından mühüm əhəmiyyət daşıyır.

### Bir sözlə...

Avropa liderlərinin Vaşinqtondakı mənzərəsi siyasi çöküşün simvolu oldu. Amma Prezident İlham Əliyevin Tramp ilə görüşündə ortaya qoyduğu mövqe Azərbaycanın yeni dövrdə güclü dövlətlərindən biri olduğunu bir daha sübut etdi.

***Yusif Quliyev***

# Qlobal iqlim dəyişiklikləri: yaxın gələcəkdə bizi nə gözləyir?

"Qlobal iqlim dəyişiklikləri yaxın illərdə daha ciddi nəticələr doğura bilər".Bunu SİA-ya açıqlamasında ekoloq Çingiz İsmayılov deyib. Onun sözlərinə görə, qlobal iqlim dəyişiklikləri artıq dünyanın hər yerində öz təsirini göstərməkdədir: "Bu proseslər hər regionda fərqli şəkildə müşahidə olunur və bəzi yerlərdə daha kəskin nəticələrə səbəb olur. Məsələn, qlobal istiləşmə nəticəsində buzlaqların əriməsi okean səviyyəsinin qalxmasına, sahilyanı ərazilərin su altında qalması təhlükəsinə yol açır.Azərbaycan kimi yarı quraq iqlim qurşağında yerləşən ölkələr üçün əsas təhlükə su resurslarının azalması və kənd təsərrüfatı məhsuldarlığının aşağı düşməsidir. Bu, ölkənin ərzaq təhlükəsizliyinə ciddi təsir göstərir. Əlbəttə ki, insan fəaliyyətinin - xüsusilə karbon qazı və metan emissiyalarının - iqlim dəyişikliyinə təsiri böyükdür. Amma unutmamalıyıq ki, Yer kürəsinin iqlim tarixi göstərir: buzlaşma və istiləşmə dövrləri təkcə insan fəaliyyəti ilə deyil, günəş fəallığı və geoloji faktorlarla da bağlı olub".



Çingiz İsmayılov bildirib ki, iqlim dəyişikliklərini tam dayandırmaq mümkün olmasa da, ona uyğunlaşma siyasəti yürütmək vacibdir: "Bu yanaşma bir çox beynəlxalq sənədlərdə olduğu kimi, Azərbaycanın da qəbul etdiyi əsas prinsiplərdəndir.Uyğunlaşma çərçivəsində suyun səmərəli istifadəsi təmin olunmalı, xüsusilə kənd təsərrüfatında suvarma sistemləri təkmilləşdirilməlidir. Təbiətə münasibətdə davranış dəyişməli, cəmiyyət və ailə səviyyəsində ekoloji maarifləndirmə gücləndirilməlidir. Enerji və sənaye sahəsində karbon emissiyalarını azaltmaq üçün yaşıl texnologiyalara keçid zəruridir. Eyni zamanda şəhər infrastrukturunda da islahatlara ehtiyac var. Park və yaşıllıqların suvarılmasında su itkisinin qarşısı alınmalı, avtomatik sistemlər optimallaşdırılmalıdır".

Ekspertin sözlərinə görə, nəticə aydındır: iqlim dəyişiklikləri qarşısında yeganə çıxış yolu uyğunlaşmaqdır: "Bunun üçün sosial, iqtisadi və ekoloji siyasətlər vaxtında hazırlanmalıdır.Əgər bu gün düşüncəmizi dəyişməsək, yaxın illərdə daha böyük çətinliklərlə üz-üzə qala bilərik".

***Fatimə Əliyeva***

# "Qara qızıl"ın tarixi və bu günü

Nə xoş millət olaraq bizim halımıza ki, Allah bizlərə bəhrələnmək, qidalanmaq üçün axar sularla bol olan çaylar, göllər, dənizlər, yaşıl meşələr, böyük gəlirlər, qazanclar gətirən yeraltı-yerüstü sərvətlər bəxş edib. Buna görə, təbii ki, Allahımıza şükürlər edirik. Ancaq razılaşaq ki, tariximizin elə bir dövrləri olub ki, işğalçılar və ya hakimiyyəti zəbt etmiş müəyyən qüvvələr Allahın bizlərə bəxş etdiyi sərvətlərin xalqa çatmasına, xalqında bəhrələnməsinə imkan verməyiblər. Xüsusilə də, xalqın neftin əsl sahibi olmağına əngəllər yaradılıb. Neftimiz talan edilib, xaricə daşınıb, millətə isə gəlirlərdən pay düşməyib. Yalnız bu cür ədalətsiz davranışa 1993-cü il də Ulu Öndərimiz Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra son qoyuldu. Məhz dahi Öndərimiz Heydər Əliyevin qətiyyətli siyasəti nəticəsində Azərbaycan xalqı neftinin və qazının əsl sahibi ola bildi, digər sərvətləri ilə yanaşı neftinin də taleyini həll etmək imkanı qazandı.

## Azərbaycanda neft necə və nə zaman aşkar edilib?

Azərbaycanda neftin aşkar edilməsinin tarixi qədim dövrlərə gedib çıxır. Hələ ikinci-üçüncü əsrlərdə Sabuncuda, Balaxanıda, Binəqədi ərazilərində neft gölməçələri mövcud olmuşdur. Hətta bəzən yayın günəşli havası neft gölməçələrində yanğınlar törətmişdir. Belə yanğınları söndürmək mümkün olmadığından uzun müddət yanğınlar davam etmişdir. Yalnız payızın davamlı yağışları və yaxud da qışın qar-çovğunu həmin yanğınların qarşısını ala bilirdi. Ona görə də, insanlar neft gölməçələrinin yaxınlığında yayış məskənləri qurmaqdan çəkinirdilər.

İlkin dövrlərdən başlayaraq insanlar neftdən yanacaq vasitəsi olaraq istifadə edirdilər. Xüsusilə də, qış fəslində evlərdə neftdən odunların yandırılmasında istifadə olunurdu. Sonralar azərbaycanlı tacirlər neft məhsullarını dəvələr və ya atlarla Bakıya yaxım kəndlərə, qəsəbə və şəhərlərə aparıb satırdılar. Hətta tacirlər karvanlarla nefti xarici ölkələrə aparıb satır və oradan Azərbaycan üçün vacib olan qida və ya parça məmulatlarını gətirib burada satışını təşkil edirdilər. Sonralar isə iri şirkətlər yaranmış və onlar neftlə zəngin olan əraziləri icarəyə götürür və ya satın alıb, orada neftin istismarını həyata keçirmişlər. Məlumatlara istinadən demək olar ki, 8-12-ci əsrlərdə Azərbaycanda neft çıxarıb, onun satışını həyata keçirən 10-a qədər tacir şirkətləri olmuşdur.

IX əsr də yaşamış ərəb tarixçisi və səyyahı Əhməd Əl-Bələruri Abşerondakı iqtisadi həyatın qədimdən neftlə bağlı olduğunu göstərmiş, XI-X əsrlərin tanınmış səyyahı Əbu-İshaq İstəxri, X əsrsə yaşamış və üç dəfə Azərbaycana səfər etmiş ərəb tarixçisi Əbu-d-Həsən Əli Məsudi Bakının neftli torpağı, Abşeronun "ağ" və "qara" nefti haqqında məlumat vermişdir. XVI əsrdə yaşamış tarixçi Əmin Əhməd ər-Razin Bakıda olmuş və neft mədənlərinə baxış keçirmişdir. Onun yazdığına görə, o dövrdə Bakı ətrafında 500-ə qədər neft çalası və quyu mövcud olmuş və onlardan ağ və qara neft hasil edilmişdir. 1647-ci ildə Türk səyyahı Övliya Çələbi Bakıda olmuş, buradakı neft mədənləri, çıxarılan neftin müxtəlif rənglərdə olması, neftin indiki fars-molla rejimin mövcud olduğu şəhərlərə, Orta Asiyaya, Türkiyəyə və Hindistana aparılması və gətirdiyi illik gəlir haqqında məlumat vermiş, Bakıda fəaliyyət göstərən neft şirkətlərini müfəssəl təsvir etmişdir

İtalyan səyyahı Marko Polo (XIII-XIV əsrlər) Bakı neftinin yaxın Şərq ölkələrinə aparılması, alman diplomatı və səyyahı Adam Oleari (XVII əsr) Bakıdakı neft quyuları, türk səyyahı Evliya Çələbi (XVII əsr) neft mədənləri, neftin İrana, Orta Asiyaya, Türkiyəyə və Hindistana aparılması və neftin gətirdiyi illik gəlir haqqında məlumat vermişdir. Balaxanıdakı neft quyularından birində aşkar edilmiş daş üzərindəki yazı quyunun (35 m dərinliyində) hələ 1594-cü ildə usta Allahyar Məmmədnur oğlu tərəfindən qazılıb istifadəyə verildiyi göstərilir. Alman səyyahı, həkim və təbiətşünası Engelbert Kempfer İsveç səfirliyinin katibi kimi 1683-cü ildə Abşeron yarımadasında Balaxanı, Binəqədi, Suraxanı yataqlarında olmuş, neftin Abşeron yarımadasından Təbrizə, Tehrana, Orta Asiyaya və Şimali Qafqaza aparılmasını təsvir etmişdir.



Sonrakı illərdə Azərbaycanda neft istehsalı daha da artmışdır. Nəticədə iri şirkətlər, bürolar yaranmışdır. Bakı sakini Qasımbəy Mənsurbəyov 1803-cü ildə Bibiheybət yaxınlığında, dənizdə, sahildən 18 m və 30 m aralı iki neft quyusu qazdırmışdır.

1803-cü ildə dünyada ilk dəfə olaraq bakılı Hacı Qasımbəy Mənsurbəyov Bibiheybət körfəzində, sahildən 18 və 30 metr aralıda iki quyudan neft çıxarmağa başlamışdır. Ancaq 1825-ci ilin payızında dənizdə baş verən güclü fırtına həmin quyuları məhv etmişdir. 1846-cı ildə Bibiheybətdə Zaqafqaziya diyarı Baş İdarəsinin təklifi ilə sənaye üsulu ilə 21 metr dərinlikdə kəşfiyyat quyusu qazılmış və müsbət nəticə vermişdir. Bu hal Azərbaycanın neft sənayesinin inkişafının əsasını qoymuşdur. Dünyada ilk dəfə olaraq 1847-ci ildə Bibiheybətdə, sonra isə Balaxanıda texnikanın tətbiqi ilə ilk neft quyuları qazılmışdır.1859-cu ildə Bakıda Dubinin qardaşlarının iri neftayırma zavodu istifadəyə verilmişdir. Zavodda əsasən ağ neft istehsal olunurdu. 1872-1873-cü illərdə Xəzər dənizində taxta barjlarla neft nəql edilmişdir. 1847-ci ildən neftin mexaniki üsulla qazılmış quyulardan hasil edilməsi ilə başlanır və 1920-ci ilə kimi davam edir. 1847-1848-ci illərdə ilk dəfə Bibiheybət və sonra Balaxanı yataqlarında da mexaniki üsulla qazılmış quyulardan sənaye əhəmiyyətli neft alınmış və həmin ildən də Azərbaycanın neft sənayesinin inkişafı başlanır.

## 1859-cu ildə Bakıda ilk neftayırma zavodu tikilir

Dünyada neftə olan maraq Azərbaycanda yeni istehsal müəssisələrinin yaranmasına və istehsalın artırılmasına gətirib çıxarmışdır. 1859-cu ildə Bakıda ilk neftayırma zavodu tikilir. 1863-cü ildə Cavad Məlikov Bakıda kerosin zavodu tikdirdi və dünyada ilk dəfə neftayırma prosesində soyuduculardan istifadə etdi. 1867-ci ildə 15 neftayırma qurğusu fəaliyyət göstərirdi. Bununla yanaşı neft kəmərlərinin tikintisi də həyata keçirilir. 1898-ci ildə neft mədənləri ilə Bakı neftayırma zavodlarını birləşdirən neft kəmərlərinin ümumi uzunluğu 230 km idi. Bu kəmərlərdə ildə 1mln. t neft nəql edilirdi.

1883-cü ildə Bakı-Batum dəmir yolu tikilib istifadəyə verilir ki, bu da neft və neft məhsullarının Avropa ölkələrinə ixrac edilməsində mühüm əhəmiyyətə malik idi. 1883-cü ildən Rotşild Bakıda maliyyə-kredit əməliyyatlarına başlayır və neftin satışı ilə məşğul olmağa başlayır. 1886-cı ildə Rotşildin Xəzər-Qara dəniz neft şirkəti yaradıldı. 1890-cı ildə Rotşildin bankı Bakı neftinin ixracının 42%-nə nəzarət edirdi.

## Hitlerin hazırladığı "Edelveys" planı

1901-ci ildə Azərbaycan 11,5 mln ton neft hasil edərək dünyada birinci yerə sahib olmuşdu. 1920-ci ildə mayın 27-də dərc edilmiş dekret əsasında neft sənayesi milliləşdirildi. Respublika xalq təsərrüfatının əsas sahəsi olan neft sənayesinin milliləşdirilmiş müəssisələrinin idarə olunması və milliləşdirmənin qaydasının müəyyən edilməsi Azərbaycan Neft Komitəsi tərəfindən həyata keçirilirdi. Azərbaycan neftçiləri əzablı və gərgin əmək sayəsində əldə etdikləri 3 milyon tonadək nefti 1920-ci ilin sonunadək Rusiya SFSR-inə göndərmiş, beləliklə, onun iqtisadiyyatının dirçəlməsinə, müdafiəsinin təmin edilməsinə əsaslı zəmin yaratmışdır. VIII Ümumrusiya Sovetlər qurultayı əmək hünərinə görə Azərbaycan neftçilərini ilk "Qırmızı əmək bayrağı" ordeni ilə təltif etməyi qərara aldı

İkinci dünya müharibəsi dövründə Azərbaycan nefti sovet tanklarının, təyarələrinin, avtomobillərinin əsas gücü olur. Bunu anlayan A.Hitler neftlə zəngin olan Bakını zəbt etməyi özünün əsas məqsədlərindən biri hesab edirdi. 1942-ci ilin iyulun 23-də Hitler Qafqazla bağlı "Edelveys" kod adı altında strateji bir əməliyyatın həyata keçirilməsinə dair 45 nömrəli direktiv imzaladı. "Edelveys" planına görə, Qafqazın əsas neft rayonları (Bakı, Maykop, Qroznı) işğal edilməli, vermaxt həmin ərazilərin nefti hesabına şiddətli ehtiyac duyduğu yanacaq ilə təmin olunmalı idi. Almanların son dərəcə strateji məqsədləri hədəfləyən "Edelveys" planına görə Bakı 25 sentyabr 1942-ci ildə işğal olunmalı idi. Alman hərbi komandanlığı sovet orqanlarının neft mədənlərini sıradan çıxarmağa macal tapmaması üçün Bakıya gözlənilmədən, qəfil desant ordusu çıxarmağı planlaşdırırdı.Hitler Bakı neftini ələ keçirmək üçün bir neçə əməliyyat hazırlayır , lakin əməliyyatlar iflasa uğrayır. 1941-ci ildə Azərbaycanda 23,5 mln ton neft çıxarılmışdır ki, bu da bütün Sovet İttifaqında hasil olunan neftin 71,4%-ni təşkil etmişdir. Belə yüksək hasilat SSRİ-nin İkinci dünya müharibəsindəki qələbəsini təmin etmiş, xalq təsərrüfatının qarşısında duran bir çox məsələlərin həllində neftin xüsusi rolunu daha da artırmışdır. Müharibənin həlledici mərhələsi olan 1942-ci ildə Xəzər dənizi ilə cəbhəyə 505 min ton, Həştərxan vasitəsilə 336 min ton neft məhsulları daşınmışdır.

## Sovetlərin İkinci dünya müharibəsində qələbəsinin təmin olunmasında Azərbaycan nefti xüsusi rol oynamışdır

İkinci dünya müharibəsi illərində Baltik dənizindən Qara dənizə qədər uzanmış cəbhənin tələb etdiyi bütün benzinin 80%-ni, sürtgü yağlarının 90%-ni Azərbaycan təmin edirdi. 1943-cü ildə dəniz seysmik kəşfiyyat üsulu hazırlanmış, seysmik məlumatdan və tətbiqi tədqiqatların nəticələrindən istifadə olunmuşdur. İkinci dünya müharibəsində Azərbaycanın xidmətlərini yüksək qiymətləndirən SSRİ neft və qaz naziri Nikolay Baybakov demişdir: "Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir. 40-cı illərdə SSRİ-də çıxarılan 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü".

"Pravda" qəzeti 28 iyul 1941-ci il tarixli "Azərbaycan bu gün" başlıqlı məqaləsində Staxanov hərəkatının önündə gedən, iki növbə işləyən neftçilərin, kənd yerində çalışan kolxozçuların, iməciliklər keçirərək cəbhədəki əsgərlərə yardım göstərən insanların fədakarlığından bəhs edirdi. Təəssüflər olsun ki, Sovetlər ittifaqı dövründə Moskva Azərbaycan neftindən əldə olunan gəlirlərin böyük hissəsini Rusiya və digər respublikalara ayırırdı. Qara qızılın çıxarıldığı Azərbaycan xalqına isə cüzi vəsaitlər çatırdı. Təbii ki, bu ədalətsiz və haqsız bölgü hesab olunurdu. Belə bir anormal bölgünün aradan qaldırılmasına Azərbaycan dövlət müstəqilliyini təmin etdikdən sonra nail ola bildi. 1993-cü il də xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Əliyevin rəhbərliyi ilə mükəmməl neft strategiyası işlənib hazırlandı. Az sonra, yəni 1994-cü ilin sentyabrın 20-də əfsanə kimi görünən "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycanın iqtisadi, sosial inkişafının əsası qoyuldu. Neftdən əldə olunan gəlirlərin ədalətli şəkildə bölünməsi əhalinin sosial - məişət problemlərinin köklü şəkildə həll olunmasına və sosial rifah halının yaxşılaşmasına təkan oldu. Məhz neftdən əldə olunan gəlirlərin müsbət nəticəsi olaraq qısa müddətdə ölkəmizin bütün şəhərlərində, kənd və qəsəbələrində geniş miqyaslı quruculuq, abadlıq, tikinti işləri həyata keçirildi.

## Neft-qaz hasilatında yeni texnologiyaların tətbiqi

Ölkə Prezidenti İlham Əliyev 2006-cı il iyulun 13-də Azərbaycan neftinin Türkiyənin Ceyhan terminalına çatdırılması mərasimində çıxışı zamanı "Əsrin müqaviləsi" haqqında demişdir: "Hamımız xatırlayırıq ki, bu nəhəng transmilli layihənin təməli 1994-cü ildə Bakıda - "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanmışdır. Məhz o ağır, çətin dövrdə Azərbaycan rəhbərliyinin qətiyyəti və uzaqgörənliyi nəticəsində "Əsrin müqaviləsi" imzalandı və bundan sonra bütün məsələlər öz həllini tapdı. Yeni kəmərlər tikildi, yeni neft infrastrukturu yaradıldı. O illər Azərbaycanda çox böyük təlatüm müşahidə olunurdu, Azərbaycana ciddi təzyiqlər edilirdi. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaranmasını istəməyən qüvvələr müxtəlif təzyiqlər göstərirdi. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan rəhbərliyinin, xalqımızın ümummilli lideri Heydər Əliyevin qətiyyəti, cəsarəti, Azərbaycan xalqının dəstəyi bizə imkan verdi ki, ölkəmiz öz zəngin neft, qaz yataqlarını işə sala bilsin və bu gün bizim təbii ehtiyatlarımız dünya bazarlarına çıxarılır".

## Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır

14 sentyabr 2017-ci ildə Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilib, yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirildi. Yeni Sazişlə "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıl. Yeni Saziş Azərbaycana mərhələli şəkildə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödənilməsini, SOCAR-ın payının 11,6 faizdən 25 faizə yüksəldilməsini ehtiva edir. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsinin 75 faiz həcmində olması nəzərdə tutulur. Bu sazişlə Azərbaycanda neft sənayesinin inkişafında yeni bir mərhələnin əsası qoyulur. Bir sözlə, Azərbaycanda neftin çıxarılması qədim dövrləri əhatə edir. O dövrdən bu günə qədər dəyişilməyən bir prinsip var: Neft amilini sosial həyatın yaxşılaşmasına, ərazilərin inkişafına yönəltmək. Bu qayda bu gündə davam edir. Demək olar bu gün daha planlı və uğurlu layihələrin icrası ilə həyata keçirilir. Bu gün neftdən gələn gəlirlər ölkəmizin iqtisadi qüdrətinin artırılmasına xidmət edir, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır.

***İLHAM ƏLİYEV***

# Qızılın qiyməti kəskin dəyişəcək: Bu səbəblərdən

**"UBS Global Wealth Management" qızıl bazarı ilə bağlı proqnoz dərc edib. Proqnoza görə, qiymətli metalın qiyməti bu ilin sonuna kimi troya unsiyası üçün 3500 dollara çata bilər. Qeyd edək ki, bu struktur 6 trilyon dollardan çox olan aktivləri idarə edir. Analitiklər gələcəkdə artımın davam edəcəyini gözləyirlər: 2026-cı ilin 1-ci rübündə kotirovkalar, onların hesablamalarına görə, bir unsiya üçün 3600 dollara, 2-ci rübdə isə bir unsiya üçün 3700 dollara çatacaq.**

Eyni zamanda, 2026-cı ilin 3-cü rübünün sonuna qədər qızılın 3700 dollar səviyyəsində konsolidasiya ediləcəyi proqnozlaşdırılır ki, bu da yeni tarixi maksimum olacaq.

Bu proqnoz bir neçə faktorla izah olunur ki, bunlar arasında əsas amillər geosiyasi qeyri-sabitlik, Amerika iqtisadiyyatının struktur problemləri və de-dollarizasiyaya doğru qlobal tendensiyadır.

Eyni zamanda, bazar üçün əsas risk, UBS-in qeyd etdiyi kimi, ABŞ-ın pul siyasəti ilə bağlıdır: Federal Ehtiyat Sistemi yenidən faiz dərəcələrini artırmağa məcbur olarsa, bu, investorların qızıla marağını müvəqqəti olaraq soyuda bilər.



PROQNOZ

İlin əvvəlindən qızılın qiyməti artıq 27 faizə yaxın artıb. Bu, hətta ənənəvi olaraq "təhlükəsiz sığınacaq" hesab edilən aktiv üçün də təsir edici dinamikadır. Artım təkcə qlobal iqtisadi risklər fonunda qoruyucu tələblə deyil, həm də ən böyük ölkələrin mərkəzi banklarının irimiqyaslı qızıl alışları ilə bağlıdır. Dollara inamın zəifləməsi və artan geosiyasi gərginlik şəraitində bir çox tənzimləyici orqanlar qiymətli metalların payını artırmaqla ehtiyatları diversifikasiya etməyə üstünlük verirlər.

UBS vurğulayır ki, qızıla olan tələbin uzun müddətli hərəkətverici faktorları hələ də qalır. Mərkəzi banklarla yanaşı, institusional investorlar və metala kapitalı inflyasiyadan və valyuta dalğalanmalarından qorumaq üçün etibarlı vasitə kimi baxan şəxslərin də marağı artır.

Analitik hesabatda UBS strateqləri qızılın bahalaşmasına səbəb ola biləcək amilləri ayrıca qeyd edirlər. Onların arasında ABŞ-ın büdcə siyasəti və artan milli borcla bağlı qeyri-müəyyənlik, Federal Ehtiyat Sisteminin müstəqilliyinə inamın azalması, ticarət müharibələri və proteksionist tədbirlərlə bağlı struktur riskləri, qlobal iqtisadiyyatın davam edən de-dollarizasiya prosesi, eləcə də mərkəzi banklardan tələbin davam etməsi var.

Bundan əlavə, ABŞ-da tarif siyasəti və daxili sosial problemlər, o cümlədən qeyri-qanuni immiqrasiyaya qarşı mübarizə nəticəsində yaranan "yapışqan inflyasiya" hələ tam şəkildə özünü göstərməyib. Bununla belə, o, növbəti illərdə pulun dəyərdən düşməsindən qoruya bilən aktiv kimi qızılın lehinə əsas arqumentlərdən birinə çevrilə bilər.

Digər mühüm cəhət Amerika iqtisadiyyatının zəif inkişafıdır. Proqnozlara görə, o, uzunmüddətli trenddən aşağı olacaq və bu, real faiz dərəcələrinin azalmasına səbəb olacaq.

Məhz, real dərəcələr (inflyasiya nəzərə alınmaqla) qızıl bazarı üçün kritik amildir: onlar nə qədər aşağı olarsa, qiymətli metal bir o qədər cəlbedici olur və bu da faiz gəliri yaratmır. İstiqrazlar və depozitlər layiqli gəlir verməyi dayandırdığı şəraitdə qızıl investorlar tərəfindən daha sərfəli alternativ kimi qəbul edilir.

Qeyd edək ki, son illərdə əksər ölkələr qızıl alışını artırıblar və strateji rezervlərini ən etibarlı aktiv olaraq qızılda saxlamağa çalışırlar. Azərbaycan da son illərdə qızıl alışını artırıb və bu hazırkı qlobal situasiyada ən etibarlı rezerv olaraq qəbul olunur.

***Elçin Bayramlı***

# "Valideyn öz davranışı ilə nümunə olmalıdır"

*PSİXOLOQ DANIŞDI*



"Müasir dövrdə uşaqların planşet, telefon və kompüterlərlə çox vaxt keçirməsi valideynləri narahat edən əsas məsələlərdən biridir. Texnologiya düzgün istifadə olunduqda uşağın öyrənməsi, yaradıcılığı və ünsiyyət bacarıqları üçün faydalı ola bilər. Lakin nəzarətsiz və həddindən artıq istifadə uşaqda texnologiya asılılığına, diqqət dağınıqlığına, sosial bacarıqlarda zəifliyə və emosional problemlərə səbəb ola bilər". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Zeynəb Eyyubova deyib.





Zeynəb Eyyubova sözlərinə belə davam edib: "Valideynlərin rolu burada həlledicidir. Uşaqların texnologiyadan istifadə vaxtını məhdudlaşdırmaq vacibdir. Məktəb yaşlı uşaqlar üçün gündəlik 1-2 saatlıq həddi keçməməsi tövsiyə olunur.Texnologiya istifadəsi valideyn nəzarəti altında olmalıdır. Valideynlər uşağın hansı tətbiqlərdən istifadə etdiyini, hansı videolara baxdığını bilməlidirlər.

Planşet və telefonu uşaq üçün "mükafat" və ya "cəzadan qaçış yolu" kimi təqdim etmək olmaz. Bu, cihazı daha da cazibədar edir.Uşaqlarla birlikdə açıq havada vaxt keçirmək, oyun oynamaq, kitab oxumaq, yaradıcı fəaliyyətlərə (rəsm, musiqi, idman və s.) yönləndirmək texnologiyanın təsirini balanslaşdırır.

Ən əsası, valideyn öz davranışı ilə nümunə olmalıdır. Uşaq valideynin də davamlı telefonla məşğul olduğunu görərsə, qoyulan qaydaları qəbul etməkdə çətinlik çəkəcək.

Unutmayaq ki, uşaqların texnologiya ilə münasibəti birbaşa valideynin nəzarəti, qaydaları və onlarla birlikdə keçirdiyi keyfiyyətli vaxtdan asılıdır. Məqsəd texnologiyanı qadağan etmək deyil, onu sağlam vərdişlər çərçivəsində öyrətməkdir".

***Ayşən Vəli***



# Ərdoğan Makronla Azərbaycan və Ermənistan arasındakı Vaşinqton sammitini müzakirə edib

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Fransa Prezidenti Emmanuel Makron Azərbaycan və Ermənistan arasında 8 avqustda Vaşinqton sammiti çərçivəsində əldə edilmiş razılaşmaları müzakirə ediblər. SİA-nın məlumatına görə, bu barədə Fransa prezidenti Emmanuel Makron "X" sosial şəbəkəsində məlumat verib.***

"ABŞ Prezidenti Donald Trampın 8 avqustda keçirdiyi Ermənistan və Azərbaycan arasındakı görüşü və yaranan ümidləri müzakirə etdik. Bütün sərhədlərin yenidən açılmasına imkan verəcək irəliləyişin və regional əməkdaşlığın gücləndirilməsinə imkan verəcək irəliləyişin davam etməsi vacibdir", - deyə Makron Rəcəb Tayyib Ərdoğanla telefon danışığının nəticələri barədə yazıb.

# Ucuzlaşma, yoxsa bahalaşma: Ərzaq bazarında vəziyyət necədir?

## *İdxal məhsullarında bahalaşma, yerli məhsullarda ucuzlaşma müşahidə olunur: bu nə ilə bağlıdır?*

***İlin kənd təsərrüfatı məhsullarının bol olduğu mövsüm bazarlara təsirsiz ötüşməyib. Əksər kənd təsərrüfatı məhsullarında bolluq və ucuzluq müşahidə olunur. Lakin idxal məhsullarında bahalaşma davam edir. Ümumiyyətlə, son illərdə Azərbaycanın istehlak bazarında davamlı qiymət artımı müşahidə olunur. Bəs bazarlarda, ərzaq mağazalarında müşahidə olunan tendensiyanın obyektiv və subyektiv səbəbləri nədir? Hansı məhsullar və niyə ucuzlaşıb və ya əksinə bahalaşıb?***







İdxal olunan məhsullarda süni bahalaşma olduğu qeyd olunur, bu əsasən həmin məhsulların mənbə ölkələrində bahalaşması ilə bağlıdır, lakin məsələ burasındadır ki, bəzi məhsullar dünyada ucuzlaşsa da, bizdə hələ də qiyməti yüksək olaraq qalır. Çünki idxal mallarının daşınma, gömrük xərcləri artıb. Elə də yerli ərzaq sənayesi məhsullarının qiymətlərinin artması son illərdə enerji daşıyıcılarının, bitki dərmanlarının, suyun və sair xərclərin artması ilə bağlıdır. Bu halda idxalçıları və istehsalçıları qiyməti ucuzlaşdırmağa məcbur etməyin heç bir yolu yoxdur- heç kim məhsulunu maya dəyərindən aşağı satmaz- bundansa "dükanı" bağlayıb gedər.

Sadəcə, bu sahədə bir nəzarət olmalıdır ki, qiymətlər monopolist səbəblərdən ya da yaranmış vəziyyətdən sui-istifadə səbəbindən artmasın. Tutaq ki, məhsulun maya dəyəri 10 fazi artıbsa, qiyməti də 10 faiz artmalıdır, daha 30-50 faiz yox. Dövlət bunu tənzimləmək üçün bazara nəzarəti gücləndirə, kiçik və orta sahibkarlara müəyyən güzəştlər edə bilər, monopoliyanın qarşısını tam ala bilər və s.

Əlbəttə, hazırki dövrdə qiymətləri tənzimləyən səbəblərdən biri də bazarın tələbtəklif məsələsidir. Bazarda qıt olan məhsullar bahalaşır, bol olanlar ucuzlaşır. Buna görə də dövlət yerli istehsalı olmayan və ya çox az olan məhsullar üzrə gömrük rüsumlarını azalda bilər ki, həmin məhsullara tələb təklifi üstələməsin və qiymət artmasın. Bundan başqa, yerli istehsalı dəstəkləmək üçün əlavə addımlar atıla bilər ki, yerli məhsul istehsalı çoxalsın. Son nəticədə bazarda bolluq və ucuzluq olar.

Lakin, qeyd etməliyik ki, hazırda təkcə bəzi məhsulların bahalaşması yox, həm də bəzi məhsulların ucuzlaşması da müşahidə olunur. Məsələn, müşahidələrimizə əsasən deyə bilərik ki, meyvə-tərəvəz, süd məhsulları, yumurta, paxlalılarda ciddi ucuzlaşma müşahidə olunur, amma ətin, şəkər tozunun, yağın və konservləşdirilmiş məhsulların qiyməti bahalaşır.



Təbii ki, ucuzlaşan və ya bahalaşmayan məhsullar əsasən yerli istehsal məhsullardır. Yerli meyvə-tərəvəz bu il son dərəcə bol və ucuzdur. bahadır. Mövsüm meyvələrindən ərik, şaftalı, gavalı, alça, armud, alma kimi meyvələrin qiyməti 1 manat civarındadır. Tərəvəzlərdən kartof, kələm 50 qəpik, soğan və badımcan 30 qəpik, kök, turp, balqabaq, pomidor, brokoli kimi məhsullar isə 70 qəpik civarınındadır. Qoz, fındıq da kilosu 3-4 manat arasında satılır.

Yerli məhsullarda bahalaşma əsasən emal sənayesi qida məmulatlarındadır. Belə ki, kərə və bitki yağları, meyvə və tərəvəz konservləri, bəzi süd məhsulları, ət, kolbasa-sosiska məmulatları və s. bahalaşıb. İndi 15 manatdan aşağı kolbasa, 8 manatdan aşağı pendir, 17 manatdan aşağı kərə yağı (bunun da təbii kərə yağı olması şübhəlidir), 7-8 manatdan aşağı xama, şor, kəsmik yoxdur. Qoyun ətinin kiloqramı 20 manata çatıb.



Email olunmuş yerli istehsal hazır qidalarda bəzi hallarda yerli mallar xarici mallardan bahadır. Amma normal məntiqlə yerli istehsal məhsullar heç bir halda xarici məhsullardan baha ola bilməz. Çünki nə qədər ucuz alınsa da, idxal məhsulların dəyərinə gömrük rüsumları, vergi ödənişləri, nəqliyyat xərcləri və s əlavə olunur. Yerli istehsalçıların isə belə ödənişləri yoxdur. Bəs onda niyə yerli emal məhsulları bahadır? Hesab edirik ki, bunun səbəbi istehsalçıların xərclərinin artması və bəzi sahələrdə monopoliya meyilləridir.

Hazırda yerli kənd təsərrüfatı məhsulları bol və ucuz olmasının əsas səbəbi, son illərdə dövlət dəstəyi ilə salınan çox saylı bağların, tarlaların məhsul verməyə başlaması, bu il yağıntıların bol olması, sərhədlərin bağlı olması nəticəsində ixraca gedən məhsulların azalmasıdır. Maraqlıdır ki, yerli meyvə-tərəvəz sahələrdə çox ucuz alınır, amma paytaxtda bazar-dükanda 3-5 qat baha satılır. Çünki hazırda bazarlarda yerləri alverçilər tutub və fermerlər ora girə bilmir. Nəticədə istehsalçı uduzur, istehlakçı uduzur, qazanan yalnız dəllallar olur.

Uzun illərdir ki, təklif edirik ki, ölkədə məhsul bolluğu və ucuzluq yaratmaq üçün sadə yol var- Aqrar nazirlik bütün şəhərlərdə daimi yarmarkalar təşkil etməli və məhsul istehsal edən kəndliləri, fermerləri ora maneəsiz və pulsuz buraxmalıdır. Bu halda bazarda ucuzluq və bolluq olar. Məhsulunu rahat və normal qiymətə sata bilən kəndli daha çox əkib-becərəcək.

Azərbaycanın aqrar sahədə həm daxili tələbatın ödənilməsi, həm də ixrac potensialı genişdir. Nəzərə alsaq ki, digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlim, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Aqrar sahənin inkişafı o qədər də böyük vəsait tələb etmir, sadəcə müəyyən stimullaşdırıcı tədbirlər görülməli, praktik əngəllər, monopoliya halları aradan qaldırılmalıdır. Bunu etsək, hazırda 50 faiz civarında olan idxaldan asılılığımız minimuma düşər, ərzaq təhlükəsizliyimiz təmin olunar.

Dövlət tərəfindən bu məqsədlə milyardlarla vəsait ayrılır, sadəcə həmin vəsaitlərin effektiv idarə edilməsinə ehtiyac var. Bu sahədə kompleks proqramlar hazırlanmalı, vergi güzəştləri tətbiq edilməli, ərzaq istehsalı ilə məşğul olan kiçik və orta sahibkarlara güzəştli və uzunmüddətli kreditlər ayırmaq, sahibkarların işinə yersiz müdaxiləri ləğv etməkdir.

Əgər bu tədbirlər effekltiv şəkildə həyata keçirilsə, bunun ölkəmizin ərzaq təhlükəsizliyinin tam təmin etməsi ilə bərabər, həm də iqtisadi artıma və əhalinin sosial rifahının yüksəlməsinə nail olunar.

***Elçin Bayramlı***

# Türk dünyasının qəlbi Alma-Atada vurur

## Alma-Ata estafeti Azərbaycanın Lənkəran şəhərindən aldı

***Alma-Ata "Türk Dünyasının Gənclər Paytaxtı - 2025" statusuna layiq görülüb. Bu il türk xalqlarının gəncliyi və birliyi ilə yadda qalacaq. Prezident Qasım-Jomart Tokayev təbrik teleqramında bu tədbirin ölkənin gənclər siyasətinin inkişafı və türk dövlətləri arasında əlaqələrin möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd edib. Bayram tədbirlərinə bir gün əvvəl Qazaxıstanın cənub paytaxtında Türk Dövlətləri Təşkilatının (TDT) Beynəlxalq Gənclər Festivalının açılışında start verilib.***

"Alma-Ata müstəqilliyimizin qızıl beşiyi, yaradıcı gənclərin cazibə mərkəzidir" - festivalın açılışında mədəniyyət və informasiya naziri Aida Balayevanın oxuduğu Prezident Qasım-Jomart Tokayevin təbrik teleqramındakı bu sözlər şəhərin ruhunu dəqiq əks etdirir. Dövlət başçısı vurğulayıb: "Alma-Ata sadəcə mədəniyyət xəzinəsi deyil, bütün türk dünyasının mənəvi mərkəzidir". Estafeti Azərbaycanın Lənkəran şəhərindən təhvil alan Alma-Ata "Türk Dünyasının 2025-ci il Gənclər Paytaxtı" seçilib.




Qeyd edək ki, müasir Türk Dövlətləri Təşkilatının başlanğıcında Qazaxıstanın da adı var: 1993-cü ildə Alma-Atada Türk Mədəniyyəti və İncəsənətinin Birgə İnkişafı Təşkilatının yaradılması haqqında saziş imzalanıb. Son illərdə TDT əhəmiyyətli dəyişikliklərə məruz qalıb. Bu gün təşkilatın strategiyası humanitar və mədəni dialoqdan kənara çıxır, getdikcə daha fərqli siyasi və iqtisadi əhəmiyyət kəsb edir. Burada Samuel Hantinqtonun ortaq dil, dini və tarixi köklərə görə birləşən dövlətlərin türkdilli birlik və mədəni birlik, mədəni birlik tapmaq daha asan olması fikrini xatırlatmaq məqsədəuyğun görünür. Bu, yeni əməkdaşlıq mexanizmlərinin formalaşması üçün əsas olub.




Yada salaq ki, Budapeştdə keçirilən sammitdə Qasım-Jomart Tokayev əsas çağırışları - sənaye əməkdaşlığından tutmuş rəqəmsallaşmaya qədər birgə səylər tələb edən əsas problemləri qeyd edib. Aydındır ki, Qazaxıstan bu təşkilatda əməkdaşlığın inkişafında əsas rollardan birini oynayır. Bu, daha çox prezident Tokayevin həyata keçirdiyi fəal xarici siyasət strategiyası ilə bağlıdır. Onun rəhbərliyi ilə respublika təkcə mədəni-humanitar əlaqələri gücləndirmir, həm də iqtisadi konsolidasiyaya fəal kömək edir: logistik marşrutların yaradılması, Türk İnvestisiya Fondunun formalaşması, informasiya texnologiyaları və maliyyə qarşılıqlı fəaliyyəti sahəsində innovasiyaların inkişafı. Qazaxıstan həmçinin təşkilatın müşahidəçi dövlətlər və maraqlı qurumlarla qarşılıqlı fəaliyyətə açıqlığının artırılmasının tərəfdarıdır. Bu, birləşmiş ərazi birliyinin beynəlxalq çəkisini artırır və ona öz siyasi gündəmini formalaşdırmaqla "maraqlar klubu"nun hüdudlarından kənara çıxmağa imkan verir. Ekspertlər qeyd edirlər ki, bu transformasiya Avrasiyada geosiyasi qeyri-sabitlik və digər inteqrasiya təşəbbüslərinin ləngiməsi fonunda baş verir ki, bu da Tokayevin səylərini bütün türk regionu üçün xüsusilə əhəmiyyətli edir.

Gənclərin türk dünyasının inkişaf proseslərinə cəlb olunmasına gəlincə, həm müsbət, həm də potensial mübahisəli aspektlər mövcuddur. Bir tərəfdən, ötən müstəqillik illəri Qazaxıstana öz dəyər və prioritetlər sistemini formalaşdırmağa imkan verib ki, bu da təbii olaraq onun xarici siyasət istiqamətlərini müəyyən edir. Bu baxımdan gənclərin türk dünyası daxilində inteqrasiya təşəbbüslərini qavrayışı tarixi yaddaşa və ya geosiyasi ideyalara əsaslanan gözləntilərdən fərqli ola bilər. Açıq dünyada tərbiyə olunan gənc nəslin maliyyə baxımından praktiki olaraq yönləndirilməsinə xüsusi diqqət yetirilir. Onlar hər zaman öz ölkələrinin "əsarətinə" və ya "müstəmləkələşdirilməsi" ilə bağlı narahatlıqları büruzə verir, bir daha kimsənin təsiri altında yaşamağı qəbul etməyəcəklərini öz fəaliyyətləri ilə göstərirlər.

Qazaxıstanda rus dili Konstitusiyaya görə rəsmi statusa malikdir, dövlət dili səviyyəsində istifadə olunur və qorunmağa ehtiyac yoxdur. Lakin getdikcə öz mövqeyini itirir. Bir tərəfdən, doğum səviyyəsinə görə yerli əhali artır, ölkənin rusdilli vətəndaşları respublikanı tərk edirlər. Və bunda dil-mədəni fərqlər, siyasi faktorlar da müəyyən rol oynayır. Buna görə də, digər tərəfdən, Rossotrudniçestvo-nun postsovet respublikalarında, o cümlədən Qazaxıstanda uğursuzluğu qeyd edilir. İkitərəfli Rusiya-Qazaxıstan münasibətlərində iş iqtisadi nailiyyətlərə və formal göstəricilərə qədər azaldılıb ki, bu da insanların, xüsusən də gənc nəslin "ağlı və ruhu" ilə işləməyin əhəmiyyətini artırıb.

Eyni zamanda, Türkiyənin və digər Türkdilli ölkələrin mədəni-maarifləndirmə sahəsində daha incə və effektiv iş apardığını qeyd etmək yerinə düşər. Türk dəyərlərinin, dilinin və mədəniyyətinin fəal şəkildə təbliği, eləcə də Mərkəzi Asiya ölkələrindən olan gənclər üçün təhsil imkanlarının yaradılması bizə türk dünyasının müsbət imicini formalaşdırmağa və onun regionda mövqeyini gücləndirməyə imkan verir. Bu baxımdan, postsovet respublikalarında "rus dünyası"nın təbliği ilə bağlı yanaşmaları yenidən nəzərdən keçirmək lazımdır. Bəzi rusdilli ekspertlər düşünürlər ki, cəmiyyətdəki dəyişmiş geosiyasi reallıqları və əhval-ruhiyyəni nəzərə almaq, eyni zamanda düz və qarşıdurma xarakterli bəyanatlardan qaçmaq vacibdir. Bunun əvəzinə hörmət, bərabərlik və milli maraqların nəzərə alınması prinsipləri əsasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafına diqqət yetirmək lazımdır.

Etiraf etmək lazımdır ki, türk inteqrasiyası mövzusu bu gün Mərkəzi Asiya ölkələrində "Rus dünyası" mövzusundan daha müsbət qəbul edilir. Bu, həm mədəni, həm dil yaxınlığı kimi obyektiv amillərin, həm də Rusiya siyasətindəki yanlış hesablamaların nəticəsidir. Rusiyalı ekspertlərin fikrinə görə, Türk dünyası mövzusunun "yayılması" Rusiya üçün zərərsiz deyil. Buna görə də bu, Rusiya tərəfdən Mərkəzi Asiya ölkələri ilə etimadın və əməkdaşlığın gücləndirilməsinə, eləcə də regionda öz maraqlarının təşviqinə yönəlmiş daha fəal və balanslaşdırılmış mövqe tələb edir.

Qırğızıstanı misal gətirənlər bunu belə əsaslandırırlar ki, guya bu ölkə digər geosiyasi oyunçuların əlində alətə çevrilib, Britaniya proqramına və Britaniya dərsliklərinə görə, "Qərb Mərkəzi Asiya ölkələrində də Böyük Britaniyanın "proxy"sidir. Onlar yanlış olaraq düşünürlər ki, "TDT Avropa Birliyinin prototipidir, onun vasitəsilə Avropa dövlətləri müstəqilliklərini itirdikləri kimi, region ölkələri də müstəqilliklərini itirəcəklər. Bu gün dövlət başçılarını Brüsseldən təyin etdiyi kimi, Mərkəzi Asiya respublikalarını da siyasətçilərin deyil, Londondan təyin olunacaq məmurların idarə edəcəyi saat uzaqda deyil. Sonuncunun bariz nümunəsi Moldova və Rumıniyadır. Eyni şey Mərkəzi Asiyanı da gözləyir. Bunun fərqli olacağını düşünmək sadəlövhlükdür.

***V.VƏLİYEV***



# Qarabağ və Şərqi Zəngəzurda 12 şəhər dirçəldilir - Region üçün nümunə

***Azərbaycanın dövlətçilik tarixində ən mühüm hadisələrdən biri 2020-ci ilin Vətən müharibəsində qazanılan Zəfər oldu. Bu qələbə ilə təkcə ərazi bütövlüyümüz təmin edilmədi, həm də işğaldan azad edilmiş torpaqlarımızda yeni həyatın, dirçəlişin əsası qoyuldu. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı layihələr məhz həmin tarixi qələbənin real nəticəsidir. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" ölkəmizin gələcək inkişaf strategiyasının ən vacib istiqamətlərindən birini təşkil edir. Bu proqram çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda 12 şəhərin Baş planının işlənməsi nəzərdə tutulur. Artıq Ağdam, Qubadlı, Füzuli, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Şuşa və Laçın şəhərlərinin Baş planları hazırdır. Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərinin baş planlarının hazırlanması isə davam etdirilir. Bununla yanaşı, 90 kənd və qəsəbənin planlaşdırılması yekunlaşıb, 10-u şəhər olmaqla 40-a yaxın yaşayış məntəqəsində yenidənqurma işləri sürətlə aparılır.***



Şəhərlər üzrə spesifik yanaşmalar da diqqət çəkir. Belə ki, Ağdamın baş planı Prezident İlham Əliyevin iştirakı ilə təqdim olunub. Şəhər işğal dövründə tamamilə dağıdıldığı üçün "Qarabağın Hirosiması" adlandırılırdı. Yeni Baş plana əsasən, Ağdam müasir şəhərsalma prinsiplərinə uyğun salınır, "ağıllı şəhər" və "yaşıl enerji" konsepsiyaları tətbiq olunur. Burada inzibati binalar, təhsil və səhiyyə müəssisələri, parklar, mədəniyyət ocaqları, sənaye zonası nəzərdə tutulur. Ağdam Qarabağda yenidənqurmanın əsas dayaq şəhərlərindən və sənaye-idarəetmə infrastrukturunun toplaşdığı mərkəzlərdən biridir. Füzuli isə işğaldan azad edilən ilk rayon mərkəzlərindən biridir. Burada artıq beynəlxalq hava limanı istifadəyə verilib. Şəhərin baş planında müasir yaşayış massivləri, geniş yaşıllıq sahələri, ictimai məkanlar, məktəblər və xəstəxanalar nəzərdə tutulur. Füzuli bölgənin logistika mərkəzi kimi inkişaf etdirilir. Baş plana görə Cəbrayıl həm yaşayış, həm də sənaye mərkəzinə çevriləcək. Burada kənd təsərrüfatı məhsullarının emalı, logistika və ticarət sahələrinin inkişafı nəzərdə tutulur. Şəhərin memarlıq üslubu müasir elementlərlə yanaşı tarixi xüsusiyyətləri də əks etdirəcək. Qubadlının Baş planında şəhərin təbiəti ilə vəhdətdə formalaşdırılan yaşayış sahələri, turizm potensialına uyğun istirahət zonaları yer alır. Dağlıq relyef nəzərə alınmaqla ekoloji yanaşma üstünlük təşkil edir. Şəhərin iqtisadiyyatı əsasən kənd təsərrüfatına söykənəcək. Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilib. Zəngilan bu siyasətin aparıcı rayonlarındandır. Baş plana əsasən, şəhər tamamilə ekoloji prinsiplərlə inşa edilir. Burada "ağıllı şəhər" elementləri tətbiq olunur, enerji günəş və su mənbələrindən təmin ediləcək. Beynəlxalq dəhlizlərin kəsişməsində yerləşməsi Zəngilanı logistika və ticarət mərkəzinə çevirəcək. Kəlbəcərin baş planı dağlıq relyefi nəzərə almaqla hazırlanıb. Mineral sular, zəngin meşələr və yaylaqlar əsasında ekoturizm və sağlamlıq turizmi inkişaf etdiriləcək. Burada müasir sosial infrastruktur obyektləri, kurort zonaları, müalicəvi sanatoriyalar yaradılacaq. Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada baş plan hazırlanarkən tarixi memarlıq üslubu qorunub saxlanılıb. Yuxarı Gövhər Ağa və Aşağı Gövhər Ağa məscidləri, Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ev muzeyləri, qala divarları və digər abidələr bərpa olunur. Şuşa həm də beynəlxalq mədəni tədbirlərin mərkəzinə çevriləcək. Laçının baş planı ekoloji yanaşma üzərində qurulub. Dağlıq relyef və zəngin təbiət imkan verir ki, burada həm kənd təsərrüfatı, həm də turizm sektoru inkişaf etdirilsin. Müasir yaşayış binaları, ictimai məkanlar, məktəblər və xəstəxanalar salınır. Laçın həm də "Böyük Qayıdış" çərçivəsində strateji məntəqə kimi planlaşdırılır.

## Şəhərsalmada yeni konsepsiyalar və beynəlxalq standartlar

Hazırlanan baş planların ən mühüm özəlliyi onların beynəlxalq standartlara uyğun işlənməsidir. Xarici və yerli şirkətlərin, mütəxəssislərin iştirakı ilə aparılan layihələndirmə işləri həm müasir şəhərsalma prinsiplərini, həm də regionun coğrafi, iqlim və iqtisadi xüsusiyyətlərini nəzərə alır. Hər bir şəhərin tarix-memarlıq strukturu, təbii mühiti, ekoloji mühitin qorunması və inkişafı əsas götürülür. İşğal dövründə yerlə-yeksan edilmiş şəhər və kəndlər indi təkcə əvvəlki görkəminə qaytarılmır, həm də müasir texnologiyaların tətbiqi ilə yeni formatda dirçəlir. Qurulan infrastrukturlar insanların rahat və təhlükəsiz həyatını təmin edir. Yollardan tutmuş kommunikasiya sistemlərinə, sosial obyektlərdən tutmuş yaşayış evlərinə qədər hər detal yüksək keyfiyyətlə planlaşdırılır.

Qarabağ və Şərqi Zəngəzur bölgələri Azərbaycanın tarixi-mədəni irsinin mərkəzlərindən biridir. Burada yerləşən yüzlərlə məscid, məqbərə, kilsə, qala və digər abidələr işğal dövründə dağıdılıb, bir çoxu isə məqsədli şəkildə məhv edilib. Baş planlarda bu abidələrin bərpası xüsusi yer tutur. Çünki ərazilərin dirçəlişi yalnız müasir yaşayış mühitinin qurulması ilə məhdudlaşmır, həm də xalqımızın tarixinin, mədəniyyətinin, milli yaddaşının qorunmasını nəzərdə tutur.

## Sosial infrastruktur və dayanıqlı məskunlaşma

Dirçəlişin əsas məqsədi əhalinin dayanıqlı məskunlaşmasını təmin etməkdir. Bu məqsədlə təhsil, səhiyyə, sosial müdafiə, idman və mədəniyyət obyektlərinin tikintisi həyata keçirilir. Məktəblər, uşaq bağçaları, xəstəxanalar, poliklinikalar, mədəniyyət evləri, idman zalları, kitabxanalar istifadəyə verilir. Əhalinin məşğulluğunu təmin etmək üçün isə müxtəlif iqtisadi zonalar, sənaye parkları, kənd təsərrüfatı və emal müəssisələri yaradılır. Bu, həm bölgədə iqtisadi canlanmanı təmin edir, həm də qayıdan əhalinin sosial rifahını yüksəldir. Artıq ilkin mərhələdə 30 mindən çox insan doğma yurduna qayıdıb və normal yaşayış şəraiti ilə təmin olunub.

Qarabağ və Şərqi Zəngəzurun zəngin təbiəti və tarixi irsi turizm baxımından böyük imkanlar yaradır. Dağlıq ərazilərdə qış turizmi, yaylaqlarda ekoturizm, tarixi abidələrdə mədəni turizm, meşə və göllərdə isə istirahət və sağlamlıq turizmi inkişaf etdirilir. Xüsusilə Kəlbəcər və Laçın rayonlarında mineral sular, müalicəvi iqlim şəraiti, gözəl dağ mənzərələri turizm üçün böyük perspektivlər açır. Zəngilan rayonunda isə Araz çayı ətrafında ekoloji layihələr və Zəngəzur dəhlizinin yaratdığı imkanlar turizmi sürətləndirəcək.

## Böyük Qayıdış - milli həmrəyliyin təntənəsi

Qarabağ və Şərqi Zəngəzurun bərpası təkcə iqtisadi və sosial məsələ deyil, həm də milli həmrəyliyin, dövlət-vətəndaş birliyinin təcəssümüdür. İllərlə doğma torpaqlarından didərgin düşən yüz minlərlə insan indi dövlətin yaratdığı şərait sayəsində yurduna dönür. Onların qayıdışı təkcə evə dönmək deyil, həm də milli qürurun, tarixi ədalətin bərpasıdır.

Prezident İlham Əliyevin dediyi kimi, "Biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq". Bu qətiyyət bütün layihələrin əsas qayəsini təşkil edir. Qarabağ və Şərqi Zəngəzurda aparılan işlər Azərbaycanın gücünü, dövlətin iradəsini və xalqın birliyini nümayiş etdirir.

Nəticə etibarilə, bu gün Qarabağ və Şərqi Zəngəzur yeni tarix yazır. Burada inşa olunan şəhərlər, kəndlər gələcəyin Azərbaycanının gücünü, müasirliyini, dayanıqlı inkişaf modelini əks etdirir. 12 şəhərin dirçəldilməsi və onlardan 8-nin Baş planının artıq hazır olması Böyük Qayıdışın real, praktiki mərhələyə qədəm qoyduğunu göstərir. Azad edilmiş torpaqların bərpası bir neçə il sonra təkcə Azərbaycan üçün deyil, bütün region üçün nümunə olacaq. Çünki bu layihələrdə həm müasir urbanizasiya, həm ekoloji davamlılıq, həm də tarixi-mədəni irsin qorunması birləşir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən dirçəliş Azərbaycan dövlətinin iradəsini, xalqımızın qürurunu və gələcəyə inamını təcəssüm etdirir.

***Nigar Orucova***

*Texnologiya o qədər sürətlə yenilənir ki, əvvəl eşitmədiyimiz, görmədiyimiz yeni texnologiyalar və süni intellekt anlayışları ilə qarşılaşırıq, öyrənməyə çalışırıq, hələ öyrənmədən yeni texnoloji imkanlar barədə eşidirik. Biz bu texnologiya və yeniliklərlə tanış olub öyrəndiyimiz prosesdə bir çox peşə tarixə çevrilir. Bəs hansı peşəni öyrənməliyik ki, gələcəkdə işsiz və pulsuz qalmayaq?*

# Necə peşə seçməli ki, işsiz qalmamalı?



## Aktuar mütəxəssisi

Aktuar və ya aktuar mütəxəssisi kimi tanınan bu peşəyə yiyələnən insanlar, maliyyə risklərinin qiymətləndirilməsi, buna uyğun həllərin işlənib hazırlanması və bu istiqamətdə təkliflər verməklə uzunmüddətli perspektivdə yarana biləcək nəticələri təhlil edirlər. Bu qiymətləndirmələri edərkən o, ölüm, xəsarət, xəstəlik, əlillik və ya təqaüdəçıxma kimi hadisələri, həmçinin oğurluq, qəzalar, zəlzələ, daşqın və ya yanğın kimi fəlakətləri əhatə edən risk qiymətləndirməsini aparır. Risk təhlili nəticəsində maliyyə itkilərinin qarşısını almaq və ya minimuma endirmək üçün bəzi addımlar təqdim edir.



## Epidemioloq

Epidemioloqlar cəmiyyətdə baş verə biləcək xəstəliklərin, eləcə də bununla bağlı sağlamlıq vəziyyətinin və bədbəxt hadisələrin əvvəlindən axıra qədər araşdırma prosesini həyata keçirən şəxslərdir. Araşdırma zamanı hadisənin başvermə tezliyi, yeri və forması kimi bir çox kriteriyalardan istifadə edərək təhlil edirlər. Bu təhlil nəticəsində əldə edilən məlumatlar işığında onlar yeni tədbirlərin görülməsinə və yol xəritəsinin yaradılmasına öz töhfələrini verirlər. Xüsusilə, Covid-19 pandemiyasından sonra bu peşə sahiblərinə ehtiyac çoxaldı.

## Mobil tətbiq və oyun tərtibatçı

Bu peşə qrupunda olan insanları həyatımızda daha tez-tez görürük, lakin onların daha çox görəcəyimiz olduğunu etiraf etməliyik. Mobil proqram və ya oyun tərtibatçıları, alış-verişdən oyuna, təhlükəsizlikdən bank əmə-



liyyatlarına, sağlamlıqdan musiqi dinləməyə qədər bir çox fərqli sahədə xidmət göstərirlər.

## Maliyyə meneceri

Maliyyə menecerləri, maliyyə əməliyyatlarının hazırlanması və idarə edilməsi proseslərinin ekspertidir. Şirkət və ya qurumun maliyyə proseslərini idarə edən işçi şirkət üçün böyük əhəmiyyət kəsb edir. Gələcəkdə maliyyə sektorunun daha da böyüyəcəyini nəzərə alsaq, maliyyə menecerlərinə tələbatın daha da çoxalacağını deyə bilərik.

## Sənaye məlumatı mütəxəssisi

Sənaye məlumatlarının toplanmasına və bu məlumatların fonunda təhlillərin aparılmasına imkan verən, istehsal proseslərini daha dəqiq və ixtisaslı idarə edən şəxslərdir. Xüsusilə, onlayn alış-verişin artması səbəbindən gələcəyin məşhur peşələri arasında olacaqlar.

## Robot koordinasiya mütəxəssisi

Bu gün istehsal proseslərində robotlardan istifadə edilir və robotlardan istifadə gün-gündən artır. Ona görə də robotlar bizim yeni peşələrlə tanış olmağımıza səbəb olacaq. Gələcəyin ən populyar peşələrindən biri robot koordinasiya mütəxəssisidir. Bu mütəxəssislər robotların effektiv işləməsi, eləcə də təmir və texniki xidmət prinsiplərini nəzərdən keçirirlər.

## İOT mütəxəssisi

Əşyaların interneti kimi tanınan anlayışdan xəbəriniz varmı? İOT kimi qısaldılmış bu konsepsiya ətrafımızda olan, demək olar ki, hər şeyin internetə qoşulduğuna işarə edir. Başqa sözlə, ağıllı binalardakı kondisionerlər, siqnalizasiya sistemləri, təhlükəsizlik kameraları və bir çox başqa şeylər əşyaların interneti üçün başlanğıc mərhələlərdir. Yaxın gələcəkdə biz internet bağlantısı vasitəsilə bütün elektron cihazları, hətta uzaqdan da idarə edə biləcəyik. Ona görə də bu sahədə işləmək üçün təlim keçmiş kadrlara ehtiyac yaranacaq.

## Məlumat detektivi

Məlumat detektivləri, əşyaların interneti və internet şəbəkələri adlanan texnologiyadan əldə edilən məlumatları təhlil edərək müvafiq şəxs və ya qurumlara ötürəcək. Müxtəlif şirkətlər bu texnologiyadan bazarı düzgün təhlil etmək üçün istifadə edir və ona məhsul və ya xidmətlərin satışına xeyli vaxt və pul sərf edirlər. Amma data detektivi vaxta və pula qənaət edə bildiyi üçün bu peşənin gələcəyin peşələri arasında olacağını deyə bilərik.

## Məlumat təhlükəsizliyi mütəxəssisi

Valideynlər, həm özlərini, həm də uşaqlarını internet və texnologiyanın arzuolunmaz nəticələrindən qorumaq üçün gələcəkdə daha çox səy göstərəcəklər. Yaxın gələcəkdə kiberhücum terminini daha tez-tez eşidəcəyimizə inanılır. Bu cür hücumlara qarşı qabaqlayıcı iş aparmaq, vacib məlumatları gizlətmək və ya lazım gəldikdə onu aradan qaldır-



maq məlumat təhlükəsizliyi üzrə mütəxəssislərin işi olacaq.

## Ağıllı şəhər eksperti

Ağıllı şəhərlər, kəndlər, eləcə də ağıllı evlər həyatımızın mərkəzinə çevrilmək üzrədir. Gələcəkdə bu şəhərlərin sayı milyonlarla ölçülən sensorlar (qəbuledicilər) ilə təchiz ediləcəyi gözlənilir. Bu sensorlar elektrik, internet, su, təbii qaz və tullantı kimi bir çox prosesdə istifadə olunacaq. Buna görə də vizual intellekt baxımından şanslı olan ağıllı şəhər mütəxəssislərinin üzərinə mümkün nasazlıqlarda böyük vəzifə düşəcək.

## Süni intellekt mütəxəssisi

Yaxın gələcəkdə bir çox fərqli yerdə, xüsusilə sağlamlıq, texnologiya və istehsal kimi sahələrdə süni intellektin nemətlərindən faydalanmağa başlayacağıq. Müvafiq olaraq, süni intellekt sahəsində mütəxəssislərə ehtiyac duyulacaq. Süni intellekt təcrübəsi süni intellekt texnologiyaları və tətbiqlərində dərin bilik və bacarıq tələb edir. Süni intellekt üzrə ekspertlər süni intellekt alqoritmlərinin inkişafı, təlim modellərinin hazırlanması və tətbiqi kimi proseslərdə ekspertlərdir. Bu mütəxəssislər müxtəlif məlumat mənbələrindən məlumatları təhlil edə, nümunələri kəşf edə və öyrənmə üsullarından istifadə edərək mürəkkəb problemlərin həlli yollarını tapa bilərlər. Süni intellekt mütəxəssisləri süni intellekt texnologiyalarından, avtomatlaşdırma, görüntü və səsin tanınması, proqnozlaşdırıcı analiz kimi bir çox müxtəlif sahələrdə istifadə edə bilərlər.

## İqlim və ekologiya mühəndisi

Müxtəlif amillərə görə iqlim fəlakətləri, daşqınlar, quraqlıqlar və meşə yanğınları səbəbindən iqlimi analiz elminə ehtiyac artır. Hava və iqlimləri araşdıran və buna uyğun həll yolları istehsal edən iqlim elminin əhəmiyyəti bu cür fəlakətlərlə yaxşı başa düşülməyə başladı. Bu hidrometerologiya deyil, daha dərin araşdırma tələb edən elmdir. Buna görə də, hava nəzarəti mühəndisliyi yeni dövrün ən populyar peşələri, başqa sözlə, gələcəyin peşələri arasında artıq öz yerini tutub. Qlobal istiləşmənin mənfi təsirlərini aradan qaldırmaq və ya yumşaltmaq üçün bütün bəşəriyyətin hava-iqlim nəzarəti mühəndislərinə ehtiyacı olacaq. Eyni zamanda dünya əhalisinin sürətlə artması, təsirini günü-gündən artıran qlobal istiləşmə, yaşayış yerlərinin azalması və ya məhv olması, su ehtiyatlarına çıxış imkanları sürətlə artdıqca ekologiya mütəxəssislərinə ehtiyacın artacağını söyləmək mümkündür. Bu gün ekologiya üzrə mütəxəssislərin sayının çox az olduğunu nəzərə alsaq, deyə bilərik ki, bu sahəni seçib özünü inkişaf etdirənlərin qarşıdakı illərdə çox mühüm işlərdə işləmək potensialı var.

## Biometrik üzoxuma mütəxəssisi

Müasir dünyada insanın yalnız jest və mimikalarına diqqət yetirməklə, üz hərəkətlərini araşdıraraq bu barədə məlumat əldə etmək mümkündür. Bəzən hətta onların xarakteri və oriyentasiyası haqqında fikir verə bilər. "Antroface" kimi tanınan biometrik üz oxunması və identifikasiyası təhlükəsizlik orqanları, psixoloqlar, psixiatrlar və işə götürənlər tərəfindən istifadə olunur. Üztanıma ilə maraqlananlar üçün ən gözəl peşələr arasında yer alan biometrik üzoxuma sahəsi maraqlı ola bilər. Yaxın vaxtlarda bu sahədə özünü inkişaf etdirmiş mütəxəssislərə tələbat olacağını söyləmək mümkündür.

## Mexatronika mühəndisi

İstər indiki, istərsə də gələcək peşələr arasında birinci yerdə olan bu mexatronika mühəndisliyi maşınqayırma və elektron mühəndisliyin birləşməsi kimi qəbul edilsə də, çoxşaxəli bir sahə kimi qəbul edilməlidir. Çünki maşınqayırma, elektrik və elektron mühəndislik, kompüter mühəndisliyi, mühəndislik və bəziləri sənaye mühəndisliyi sahəsinə daxil olan işləri görə bilirlər. Mexatronika mühəndisləri olanlar avtomobil, robot istehsalı və aviasiya da daxil olmaqla geniş sahələrdə iş tapa bilərlər. Üstəlik, bütün dünyada ehtiyac duyulan bir peşə olduğu üçün istədikləri yerdə iş tapmaq şansı da var.

## Metaverse peşələri

İnanılmaz sürətlə inkişaf edən texnologiyanın ən yeni sahələrindən biri kimi ortaya çıxan "Metaverse" (uydurma kainat) anlayışı peşələrə də təsir göstərməyə və dəyişdirməyə başladı. Mütəxəssislərin fikrincə, 2030-cu ilə qədər metaverse ilə əlaqəli onlarla biznes istiqamətləri və peşələr meydana çıxacaq. Yeni dövrün ən populyar peşələri arasında metaverse tədqiqatçısı, planneri, ekosistem tərtibatçısı, kiber təhlükəsizlik mütəxəssisi, metaverse təlimçisi sahələri var.

*Lalə Mehralı*

# Unutmaq və bağışlamaq mümkün deyil









Tarixi səhvlərdən və yanlışlıqlardan nəticə çıxarmaq, sabah və gələcəkdə baş verə biləcək növbəti faciələrin qarşısını almağa xidmət edər. Təəssüf ki, bəzən sadəlövlük və həddindən artıq xeyirxah olmağımız keçmişin səhvlərindən nəticə çıxarmağımıza imkan vermir. Bundan da istifadə edən məkrli dairələr, xüsusilə də ermənilər Azərbaycana qarşı fürsət yarandıqca qəsbikar və vandal siyasət yürüdüb. Nəticədə son yüz ərzində 2 milyondan çox azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilib, minlərlə kənd və qəsəbə, şəhərlər dağıdılaraq xarabazarlığa çevrilib. Erməni vəhşiləri xarici dairələrdən aldıqları hərbi, siyasi, maliyyə dəstəyi nəticəsində 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə azərbaycanlılara qarşı soyqırımı və etnik təmizləmələr həyata keçiriblər. 1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunları və daşnak erməni silahlı dəstələri 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar; Erməni cəlladları uşaq, qoca, qadın demədən dinc əhalini kütləvi surətdə qətlə yetirmiş, on minlərlə azərbaycanlı ilə yanaşı, minlərlə ləzgi, yəhudi, rus, avar və talış milliyyətinə mənsub insanları qılıncdan, süngüdən keçirərək diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və mədəni abidələri dağıtmışlar;

Dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda "Daşnaksutyun" partiyasının 4 minlik silahlı dəstəsi iştirak etmişdir. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, uşaqdan böyüyədək hər kəsi qətlə yetirmişlər. Əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşında əbədi həkk olunmuşdur.

## Erməni terrorçuları körpə uşaqlara da rəhm etməmişlər

1905-1906-cı illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər əvvəlki dövrlərdə həyata keçirdikləri qətliamlardan daha amansız olmuşdur. Çünki onlar məqsədli şəkil də uşaqları hədəfə alıb, onları kütləvi şəkildə qətlə yetirirdilər. Hətta hamilə azərbaycanlı qadınlarına rəhm etmir, onları süngü ilə öldürürdülər. Erməni terrorçuları ilə həmfikir olan erməni milyonçuları onlara hər cür maliyyə yardımları göstərirdilər. 1905-ci ilin fevralın 6-da Bakıda erməni milyonçuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter Osipovun və başqalarının dəstəyi və yardımları sayəsində terror qrupu yalnız bir küçədə 18 adamı öldürmüş və 33 nəfəri yaralamışdır. 1905-ci ilin fevralın 7-də erməni terror təşkilatı Bakıda 100-dək dinc vətəndaşımızı öldürmüş və yaralamışdır. Erməni quldur dəstələri 1905-ci ilin fevralın 9-da erməni silahlı dəstələri varlı ermənilər Balabek, Lalayev, Artyom Babayants, Akop Muradyan, Karen Saakyants və digərlərinin evlərinə yığışmış, onların pəncərələrindən və damlarından şəhərin küçələrinə atəş açmış, ingilis, fransız istehsalı olan bombalar, qumbaralar atmışlar. "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının idarə etdiyi quldur dəstələri 1905-ci ilin 20-21 fevralında İrəvan şəhərinin müsəlman sakinlərinə qarşı insanlığa yaraşmayan hərəkətlər edərək qırğınlar, vəhşiliklər etmişlər.

Dinc əhalinin vəhşicəsinə öldürülməsi bu amansız hadisənin şahidlərini dəhşətə gətirmişdir. Erməni terrorçu dəstələri qırğınların miqyasını genişləndirmək məqsədi ilə 1905-ci il mayın 11-də Bakı şəhərində Qafqaz xalqları arasında dostluq əlaqələrinin yaradılmasına çalışan knyaz M.A. Nakaşidzeni və onun köməkçisi Q. Takiyeskilini qətlə yetirdilər. Bu hadisəni şahid, tarixçi R.R. Subinski öz xatirələrində göstərmişdir. O dövrün məlumatlarına əsasən qatillərdən biri Dro ləqəbli Drastamat Xanayan idi. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında erməni quldur dəstələrinin tərkibində dinc azərbaycanlılara qarşı qanlı qırğınlarda yaxından iştirak etmişdi. Erməni daşnak quldarları 1905-ci ilin mayın 24-də İrəvan quberniyasında dinc azərbaycanlılara atəş açdılar. Qarşılıqdan istifadə erməni terrorçuları 11 vətəndaş- 4 qadın, 2 uşaq və 5 kişini qətlə yetirdilər. Bu qanlı hadisələrdən doymayan erməni quldur dəstələri 1905-ci ilin mayında Naxçıvan ərazisinə hücum edərək dinc əhaliyə qarşı qanlı divan törətdilər. Çoxlu sayda qadın, qoca və uşağı öldürdülər. Ermənilər 1905-ci ildə Zəngəzur bölgəsində də onlarca adam öldürülmüş, evlərə od vuraraq yandırmışlar. Erməni vəhşiliyi o dərəcə amansız və qəddar xarakter almışdır ki, nəhayət rus cəlladları qızışdırdıqları erməniləri sakitləşdirməyə məcbur olurlar. O təlatümlü dövrlə bağlı Azərbaycanın böyük ədiblərindən olan Məmməd Səid Ordubadi "Qanlı sənələr" adlı kitab yazır. Bakı milyonçusu Murtuza Muxtarovun maliyyə dəstəyi ilə hazırlanan kitabda ermənilərin azərbaycanlılara qarşı törətdikləri amansız vəhşiliklərdən, qətliamlardan geniş və əhatəli faktlar yer alır.

"Qanlı sənələr" adlı kitabda müəllif on minlərlə günahsız azərbaycanlının öldürülməsindən, əmlaklarının talan edilməsindən, evlərinin dağıdılmasından söz açılır. M.S.Ordubadi vəhşiliyin törədilməsi səbəbləri araşdırır və ermənilərin özlərinin etiraflarına əsaslanaraq qeyd edir ki, faciəni xaricdən gələn erməni terrorçuları, xüsusi iləd "Daşnaksütun"nun silahlı dəstələri törədib: "Daşnaksütun" tərəfindən Qafqazda oynanılmış "qanlı teatr"; yerli hakimiyyət nümayəndələrinin etinasızlığı və fəaliyyətsizliyi; erməni fitnəkarlığını və hiylələrini vaxtında tanıya bilməmiş azərbaycanlıların sadəlövhlüyü və təcrübəsizliyi, habelə silahlarının olmaması; Londonun, Parisin və Amerikanın fəal dəstəyi sayəsində Türkiyə və Cənubi Qafqazın ərazilərində "Böyük Ermənistan" yaratmaq məqsədilə, ermənilərin muxtariyyətə can atması".

## Erməni vəhşiliyi Qafqazda olmuş səyyahları dəhşətə gətirib

1905-1906-cı illərdə Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə və Cənubi Azərbaycanda bu qırğınlar davam etmişdir. Erməni daşnak quldur dəstələri 1905-ci il noyabrın 28-də Qarabağ bölgəsinin şəhər və kəndlərini yandıraraq, uşaqlara, qadınlara və qocalara qarşı görünməmiş vəhşiliklər törətmişlər. Erməni quldur dəstələri yalnız Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında 75-ə qədər Azərbaycan kəndini, İrəvan və Zəngəzur quberniyalarında isə 200-dən çox yaşayış məntəqəsini dağıtmış əhalini vəhşicəsinə qətlə yetirmişlər. Sonrakı illərdə erməni vəhşiliyi bütün Qafqazı əhatə etmişdir. 1918-ci il iyulun 15-də yaradılmış Fövqəladə İstintaq Komissiyası tərəfindən həmin dövrdə Şamaxı qəzasındakı 120 kəndin 86-sının erməni təcavüzünə məruz qaldığı təsdiqlənib. Mövcud sənədlərə əsasən erməni terror dəstələri Şamaxı şəhərində on iki min azərbaycanlını qətlə yetirmişlər.



Quba qırğınları zamanı on minə yaxın insan öldürülüb. Bu soyqırımı nəticəsində Quba qəzasının 122 kəndi dağıdılıb. 2750-dən çox ev tamamilə yandırılıb. Aparılmış tədqiqatlar onu da sübuta yetirir ki, ermənilər dinc əhaliyə divan tutan zaman odlu silahdan deyil, əsasən soyuq silahlardan istifadə ediblər. Bəzi kəllə sümüklərində hətta mismarlar aşkarlanıb ki, bu da insanların başlarına mismar vurularaq nə qədər ağır işgəncələrlə qətlə yetirildiklərini göstərir. Bütün bunlar heç bir sərhəd tanımayan erməni vəhşiliyinin, qaniçənliyinin tükürpədici mənzərəsini bir daha göz önündə canlandırır. Bu vəhşəti, insanlıq adına utanc cinayət əməlini torpağın altından gün işığına çıxaran Quba kütləvi məzarlığı 2007-ci ilin aprelində Qudyalçayın sol sahilində, Quba şəhər stadionunun təmiri ilə əlaqədar aparılan qazıntı işləri nəticəsində aşkarlandı. Təkcə bu məzarlıqda 500-dək insan kəlləsi vardı. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara aid idi. Bu adamların 1918-ci ildə ermənilərin Qubada törətdiyi soyqırımı qurbanları olduğu elmi araşdırmalarla sübuta yetirildi

## Erməni terrorunu yalnız "Dəmir yumruq" susdura bildi

Birmənalı şəkildə demək olar ki, ermənilərin törətdiyi vəhşiliklər, vandalizm aktları dünya üçün fəlakət deməkdir, insanlığa yönələn faciədir. Ona görə də, Birləşmiş Millətlər Təşkilatı başda olmaqla digər aparıcı beynəlxalq qurumlar erməni vəhşiliyinin dayandırılması və digər ölkələrə keçməsinin qarşısının alınması üçün təsirli və təcili tədbirlər görməlidir. Əks halda gec ola bilər. Sonrakı mərhələdə erməni terror maşını dünyanın əksər bölgələrinə yayıla bilər. Bu zaman Şuşada, Cəbrayılda, Xocalıda, Ağdamda, Fizulidə, Kəlbəcərdə yaşanan erməni soyqırımları Avropada, Asiyada və digər bölgələrdə yaşana bilər. Nəzərə almaq lazımdır ki, işğaldan azad edilən ərazilərə səfərləri çərçivəsində Ağdam şəhərində olan səyahətçilər gördükləri dağıntılardan təsirləndiklərini və bölgəni "Qafqazın Xirosiması" adlandırmışlar. Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evləri, ictimai binalar, məktəblər, uşaq bağçaları, xəstəxanalar, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblı. Hər şeyi məhv edən erməni vandalları tarixi abidələri, qəbiristanlıqları da dağıdıblar. Vaxtilə Azərbaycanın ən varlı rayonu olan Ağdamın yerində indi talan edilərək dağıdılmış Qafqazın Xirosimasına çevrilmiş xarabalıqlar qalıb. Füzuli rayonu ərazisindəki memarlıq abidələri yerlə yeksan olunub. Qarğabazar kəndində XVII əsrə aid karvansara və məscid, XVIII əsrə aid türbə, Aşağı Ayıbasanlı kəndində İbrahim türbəsi, Qoçəhmədli kənd məscidi, Aşağı Veysəlli kəndində XII əsrə aid qəbiristanlıq və Mir Əli türbəsi (XIII əsr), Horadiz məscidi və İmamzadə türbəsi, Füzuli şəhərində Qacar, Böyük Pirəhmədli, Merdinli kəndlərindəki məscidlər, Saracıq və Gorazıllı kəndlərindəki körpülər, Merdinli kəndi yaxınlığındakı daşdan yonulan at, qoç fiqurları, dünyanın ən qədim insan məskənlərindən olan Azıx mağarası, həmçinin kurqan tipli arxeoloji abidələr erməni vandalizminin qurbanı olublar. Otuz ilə yaxın erməni işğalı altında qalmış Füzuli rayonunun təbii sərvətləri də talan olunub.

Ermənilər meşələrdəki ağacları vəhşicəsinə qırıb, yaxud yandıraraq məhv ediblər. Cəbrayıl şəhərinin yaxınlığındakı Orta əsrlərə aid qəbiristanlıq da ermənilər tərəfindən yerlə-yeksan edilib. Qiymətli qəbir daşları talan edilərək aparılıb, qəbirlər qazılaraq çıxarılıb, insan sümükləri ətrafa səpələnib. Ermənilər qəbiristanlıqları dağıtmaqla tarixi keçmişimizi, mənəvi yaddaşımızı silmək istəyiblər. Lakin insanlığa sığmayan bu əməlləri ilə əsl xislətlərini, barbarlıqlarını bir daha nümayiş etdirmiş olublar.

## Yüz illər keçsə də erməni vəhşiliyi unudula və yaddan çıxa bilməz

Erməni vəhşiliyini unutmaq insanlıq hissindən uzaq olmaq deməkdir. Çünki ermənilər birbaşa insanlığa və bəşəriyyət qarşı cinayətlər törədiblər. Ona görə də, dünya birliyi sülh və təhlükəsiz şəraitdə yaşamaq istəyirsə, mütləq erməni terrorunu dayandırmalıdır. Təəssüf ki, bəzi ölkələr, xüsusilə də Fransa. Hindistan, Fars-molla rejimi, Yunanıstan və digər ölkələr ermənilərə himayədarlıq edir onlara hərbi, siyasi, maliyyə dəstəyi göstərirlər. Lakin unudurlar ki, günün birində bəslədikləri erməni terroru onların özlərinə qarşı çevriləcək. Biz isə ayıq və sayıq olmalıyıq. Daim birlik və bərabər olmalı, erməni məkrinə qarşı mübarizə aparmalıyıq. Necə ki, bu birlik 44 günlük Vətən müharibəsində erməni terror maşına qarşı nümayiş etdirilmişdir. O zaman xalqın yeddidən yetmişə qədər hər kəsin Fateh Sərkərdə, Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi ilə 30 il işğal altında olmuş torpaqlarımız azadlığına qovuşdu. Biz bir millət olaraq erməni terrorunu dayandırdıq. Ali Baş Komandanın rəhbərliyi ilə erməni terrorunu "Dəmir yumruq"la susdurduq. Elə etməliyik ki, onlar bir daha başlarını qaldırmasınlar. Həm də tarixi dərslərdən nəticə çıxaraq.

**İLHAM ƏLİYEV**

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

ELMİN SONU

**(XXXV YAZI)**



Seriyamızın bundan əvvəlki hissələrində insanın necə yaranması haqda maraqlı faktları təqdim etmişik. Ondan əvvəlki hissələrdə isə, bitkilərin, heyvanların, ümumiyyətlə həyatın necə yarandığı haqda elmi və dini dəlilləri vermişdik. Bu yazıda isə, həyatın mənbəyi haqda cəfəngiyyatın (təkamül nəzəriyyəsi) elm tərəfindən necə təkzib edildiyinə toxunacağıq.

## Həyatın mənşəyi haqqında elm nə deyir?- MARAQLI FAKTLAR- 4

Burada onu da qeyd etmək lazımdır ki, qərəzsiz, heç bir ideologiyadan təsirlənməmiş, yalnız ağıl və məntiqdən istifadə edən hər kəs elmdən və sivilizasiyadan uzaq cəmiyyətlərin xurafatlarına bənzəyən təkamül nəzəriyyəsinin inanılmaz qeyri-mümkün bir iddia olduğunu asanlıqla anlayacaq.



Əvvəldə qeyd edildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çəlləyə çoxsaylı atomlar, molekullar və cansız maddələr doldurub bunları qarışdıraraq zaman keçdikcə insanların, həmçinin, müxtəlif heyvan və bitkilərin meydana çıxacağına inanırlar. Üstəlik, bu absurd iddiaya inananlar özünü alim, professor sayan mədəniyyətli, savadlı insanlardır. Buna görə də təkamül nəzəriyyəsini "dünya tarixinin ən böyük və ən güclü sehri" adlandırmaq yerinə düşərdi. Çünki dünya tarixində insanları bu qədər çaşdıran, onların rasional və məntiqli düşünməsinə mane olan, aydın həqiqətləri görməyə mane olan başqa bir inanc və iddia yoxdur.

Bu, qədim misirlilərin Günəş Tanrısı Ra-ya sitayiş etməsindən, bəzi Afrika qəbilələrinin totemlərə sitayiş etməsindən, Səba xalqının Günəşə sitayiş etməsindən, İbrahim qövmünün öz əlləri ilə düzəltdikləri bütlərə sitayiş etməsindən və ya Musanın qövmünün Qızıl buzova sitayiş etməsindən qat-qat ağır və anlaşılmaz bir korluqdur. Əslində bu, Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Quranın bir çox ayəsində bəzi insanların ağıllarının zəifləyəcəklərini və həqiqəti görə bilməyəcəklərini bildirilir.

"...Onların qəlbləri var, onunla anlamazlar, gözləri var, onunla görməzlər, qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, daha da pisdirlər. Onlar qafildirlər". (Əraf surəsi, 179)

Quranın başqa ayələrində bu insanların möcüzələr görsələr belə iman gətirməyəcək qədər sehrləndiklərini belə bildirilir:

"Əgər onların üzünə göydən bir qapı açsaq və onlar oradan yuxarı qalxsalar belə, mütləq: "Gözümüz aldandı. Ola bilsin ki, biz sehrlənmiş bir tayfayıq!" (Hicr surəsi, 14-15).

Bu sehrin bu qədər böyük bir insan qrupunu tutması, onların həqiqətdən bu qədər uzaq olması və 150 ildir ki, çox sayda elmi faktın ortaya qoyulmasına baxmayaraq bu sehrin pozulmaması sözlə ifadə olunmayacaq dərəcədə heyrət doğurur. Bir və ya bir neçə nəfərin qeyri-mümkün ssenarilərə, absurd və məntiqsizliklə dolu iddialara inanması başa düşüləndir. Halbuki, dünyadakı insanların şüursuz və cansız atomların birdən-birə bir araya gələrək, fövqəladə təşkilatçılıq, nizam-intizam, ağıl və şüur nümayiş etdirərək, qüsursuz fəaliyyət göstərən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemlərlə təchiz olunmuş canlıları yaratdıqlarına dair inancının "sehr"dən başqa izahı yoxdur.

Bu gün bir tilsimin təsiri ilə elm pərdəsi altında tamamilə cəfəng iddialara inanan və ömürlərini onların müdafiəsinə həsr edənlər, bu iddialardan əl çəkmədikcə, həqiqət tam üzə çıxsa və "sehrini pozsa" rüsvay olacaqlar. Həqiqətən də, təxminən 60 yaşına qədər təkamülü müdafiə edən, lakin sonradan həqiqəti qəbul edən ateist filosof Malkolm Muggeridge, təkamül nəzəriyyəsinin yaxın gələcək vəziyyətini belə izah edir:

"Mən özüm əminəm ki, təkamül nəzəriyyəsi, xüsusən də tətbiq olunduğu sahələrdə gələcəyin tarix kitablarında ən böyük zarafatlardan biri olacaq. Gələcək nəsillər belə qeyri-müəyyən və qeyri-müəyyən bir fərziyyənin inanılmaz sadəlövhlüklə qəbul edilməsinə heyran qalacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, s. 43)

Bu gələcək uzaqda deyil; əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüflərin" ilahi ola bilməyəcəyini anlayacaq və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi qələmə veriləcəkdir. Bu güclü sehr bütün dünyada sürətlə insanların əlindən çıxır. Təkamül yalanının sirrini öyrənən bir çox insan buna necə aldandıqlarını heyrətlə düşünür.

Həyatın cansız maddədən təsadüfən meydana gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda var olan möcüzəvi nizamın elmi sübutu və təkamülün əsla baş vermədiyini göstərən 300 milyona yaxın fosilin tapılması ilə təkzib edilmişdir. Beləliklə, təkamülün cəfəngiyyat olduğu elmi şəkildə sübuta yetirilmişdir.

Hazırda təkamül nəzəriyyəsini yaşatmaq üçün dünya miqyasında aparılan təbliğat yalnız elmi həqiqətlərin təhrif edilməsinə, qərəzli şərhlərə, elm pərdəsi altına alınmış yalanlara və saxtakarlığa əsaslanır. 1980-ci illərdən sonra aparılan araşdırmalar darvinist iddiaların tamamilə yalan olduğunu ortaya çıxarmış və bu həqiqət çox sayda alim tərəfindən etiraf edilmişdir. Xüsusilə də biologiya, biokimya və paleontologiya, kvant fizikası kimi müxtəlif sahələrdən çox sayda alim canlıların mənşəyini yaradılış həqiqəti ilə izah edir.

Qədim elmlərdə, dini kitablarda yaradılış həqiqətləri aydın şəkildə izah olunur və bütün mahiyyəti təsvir olunur. Ta qədimdən bütün alimlər yaradılışın Yaradan tərəfindən mükəmməl şəkildə yaradıldığını qəbul etmişlər. Mesopotamiya, Misir, Hindistan, Avropa mədəniyyətlərindən başqa, astek, ink, mayyalar kimi Amerika mədəniyyətlərinə də bu həqiqətlər qəbul edilmişdir. Dinlərdə də qədimdə belə qəbul olunub, lakin sonradan dinlər təhrif edilib.

Çoxtanrılı inancın içində tək Tanrı inancının gizli olduğunu aşkar edən ilk tədqiqatçılardan biri Oksford Universitetindən Stiven Lenqdon 1931-ci ildə əldə etdiyi məlumatları elm dünyasına agah edərkən bu məlumatların çox gözlənilməz olduğunu deyirdi, çünki bu tapıntıların daha əvvəlki təkamülçü izahlara tamamilə zidd olduğunu başa düşürdü. Lenqdon tapıntılarını belə şərh edirdi:

"Mənim zənnimcə, insanın ən qədim tarixi tək Tanrı inancından çoxlu sayda (dırnaqarası) tanrının və şər qüvvələrin varlığının inancına doğru çox sürətli bir təhrifi göstərir "

Lenqdon 5 il sonra "The Scotsman" adlı jurnalda isə aşağıdakıları yazırdı:

"...Bütün dəlillər qəti olaraq başlanğıcda bir tək Tanrı inancının mövcud olduğunu göstərir. Sami mənşəli xalqların arxeoloji və ədəbi tapıntıları da ən qədim zamanlarda belə tək Tanrı inancının var olduğunu göstərir. Yəhudi dininin və digər Sami mənşəli dinlərin totemistik, bütlərə əsaslanan bir mənşəyə malik olması nəzəriyyəsinin tamamilə əsassız olduğu bu gün qəbul edilmişdir".

Hazırkı dövrümüzdə Tel-Əsmər adlandırılan e.ə. 3000-ci ilə aid bir şumer şəhərində aparılan qazıntılarda da Lenqdonun dediklərini tamamilə təsdiqləyəcək tapıntılar əldə edildi. Qazıntılara rəhbərlik edən Henri Frankfort rəsmi hesabatında belə yazırdı:

"Qazıntılarımız bütün dəyərli tapıntılara əlavə olaraq, Babil dinləri haqqında bəzi çox vacib həqiqətləri aşkarladı. Bir sosial sistem içində dini dəyərlərin necə yerləşdirilmiş olduğuna ilk dəfə şahid oluruq.

Bir məbəd və bu məbəddə ibadət etməkdə olan insanların evlərinin qalıqları tapıldı. Bu səbəbdən ayrı-ayrılıqda məna ifadə etməyən tapıntıları bütöv şəkildə qiymətləndirə bilirik.

Məsələn, möhürlərin üzərindəki rəsmlərdə ümumi olaraq ilahlara sitayiş əks olunur. Lakin bu rəsmlərin hamısında həmin məbəddə sadəcə bir Tanrı inancının olduğu görünür. Bu səbəbdən də ən qədim zamandakı Şumer-Akkad etiqad sistemi içərisində bu tək İlahın fərqli xüsusiyyətlərinin ayrıca ilahlar hesab edildiyi aydın olur".

Buna bənzər təhrif izlərini qədim Misirdə də görmək mümkündür. Tədqiqatçılar qədim Misirin, əvvəlcə, təktanrılı etiqad sisteminə sahib olduğunu, daha sonra bu təktanrılı etiqadın bəzi insanlar tərəfindən təhrif edilərək Günəşə sitayiş edən sabiliyə çevrildiyini aşkar etmişdilər. Antropoloq M. de Ruje bu barədə aşağıdakıları demişdir:

"Misir dininin əmələ gəlməsi çoxsaylı tanrının süzgəcdən keçərək tək Tanrıya çevrilməsi ilə olmamışdır. Əksinə, Misir dininin tək Allah inancına yaxın olduğu zamanlar bu sivilizasiyanın təsdiq edilən qədim zamanları ilə üst-üstə düşür. Misir dininin son mərhələləri isə bütün Misir dininin ən çox pozulmuş dövrü olmuşdur".

Hind mədəniyyəti dünyanın ən qədim sivilizasiyalarından biri sayılır. Hindistanda saysız-hesabsız tanrılara tapınan batil inanclar var. Bu batil dinləri araşdıran tədqiqatçılardan biri Endrü Lenqdir. Lenq uzunmüddətli tədqiqatlar nəticəsində çoxtanrılı dinlərin Yaxın Şərqdə meydana gəlməsinə oxşar prosesin Hindistanda da baş verdiyini üzə çıxarmışdır.ğ

Eduard Makkreydi də hindlilərin "Veda" adlı külliyyatını tədqiq edərkən hind mədəniyyətinin erkən dövrlərində tanrıların bir üstün İlahın müxtəlif xüsusiyyətləri kimi şərh edildiyini yazır. Vedalarda ilahilərdə də açıq şəkildə təktanrılı tövhid inancının pozulmasının izlərini görmək mümkündür. Mövzunu təhlil edən tədqiqatçılardan Maks Müller əvvəlcə, tək İlah inancının olduğunu qəbul edir:

"Vedalarda tək Allah inancının çoxtanrılı inancdan daha əvvəl olduğunu görürük. Saysız-hesabsız tanrıya dualarında belə, tək və sonsuz Tanrının zikri göyü duman kimi örtmüş bütpərəst anlayışın arasından mavi səmanın görünməsi kimi üzə çıxır".

Buradan bir daha məlum olur ki, dinlərin təkamülü baş verməmişdir, əksinə, insanların haqq dinə bəzi batil inanclar əlavə etməsi və ya bəzi əmr və qadağalara etinasız yanaşması ilə dini inanclar zaman ərzində təhrif edilmişdir.

Deməli, ta qədim zamanlardan insanlar, müdriklər, ruhanilər, alimlər yaradılışın tək bir Tanrı tərəfindən yaradıldığını bilmiş və müqəddəs kitablarda bu dəqiq təsbit olunmuşdur. Sonrakı dövrlərdə dinlər təhrif olunmuşdur, necə ki bu gü də elm açıq-aşkar təhrif olunur.

(Ardı olacaq)

**Elçin Bayramlı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*



SON SƏHİFƏ

SƏS

22 avqust
2025-ci il

# Xaricdə təhsil alan gənclərin müəyyən hissəsi niyə geri dönmür?





## EKSPERT AÇIQLADI

"Azərbaycanda gənclərin miqrasiya meyilləri son illərdə daha qabarıq şəkildə özünü göstərir və bu, təsadüfi bir proses deyil, sistemli sosial-iqtisadi və elmi problemlərin nəticəsidir. Dövlət Statistika Komitəsinin məlumatlarına görə, ölkəni tərk edənlərin əsas hissəsini 20-35 yaş arası gənclər təşkil edir. Xarici universitütlərin rəsmi göstəricilərinə əsasən, hazırda 45 mindən çox azərbaycanlı gənc xarici universitetlərdə təhsil alır. Onların əhəmiyyətli hissəsi yalnız təhsil üçün yox, həm də daha yaxşı karyera və sosial şərait axtarışı üçün ölkəni tərk edir. Bu isə uzunmüddətli perspektivdə ölkənin intellektual potensialının itirilməsi, yəni "beyin axını" probleminin daha da dərinləşməsi deməkdir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Kamran Əsədov sözlərinə belə davam edib: "Azərbaycan Respublikasının Konstitusiyasının 42-ci maddəsində hər kəsin təhsil almaq hüququ təsbit olunub, "Təhsil haqqında" Qanunun 14.1-ci maddəsində isə açıq şəkildə göstərilir ki, dövlət təhsil sistemini əmək bazarının tələblərinə uyğun formalaşdırmalıdır. Amma təəssüf ki, qanunda əksini tapan bu müddəalar praktikada öz təsdiqini tapmır. Çünki ölkədə ali məktəblərin keyfiyyəti, tədris proqramlarının çevikliyi və gənclərə real iş bazarında imkanlar yaradılması çox zəifdir. Bu səbəbdən gənclərin böyük qismi xarici universitetləri seçir, çünki orada həm keyfiyyətli təhsil, həm də təhsildən sonra yüksək maaşlı iş imkanları var.

Müsbət tərəfi odur ki, xaricdə təhsil alan gənclərin müəyyən hissəsi geri dönərək ölkəyə yeni biliklər və müasir yanaşmalar gətirir. Onların ölkədə fəaliyyətə başlaması elmi və akademik mühitin zəif də olsa inkişafına töhfə verir. Dövlətin də "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə gənci xaricdə oxutması milli elm üçün faydalı addım olmuşdu. Amma mənfi tərəfi daha ağırdır: xaricdə təhsil alanların əksəriyyəti geri dönmür. Çünki ölkədə əməkhaqqı aşağı, karyera inkişafı qeyri-şəffaf, sosial təminatlar isə zəifdir. Dövlətin böyük resurslar sərf etməsinə baxmayaraq, bu potensial ölkə üçün yox, başqa ölkələrin inkişafına xidmət edir.

Dünya təcrübəsi ilə müqayisədə Azərbaycanın geridə qalması daha aydın görünür. Məsələn, Çində xaricdə oxuyan gənclərin qayıdışı üçün dövlət xüsusi qrantlar ayırır, vergi güzəştləri tətbiq edir, yüksək maaşlı dövlət və elmi vəzifələr təklif edir. Hindistan uzun illər "beyin axını" problemi ilə üzləşsə də, informasiya texnologiyaları sektorunda "beyin dövriyyəsi" modelini tətbiq edərək xaricdə təhsil alan mütəxəssislərin ölkəyə qayıtmasını stimullaşdırıb. Avropa İttifaqı "Erasmus+" kimi proqramlarla tələbələrin mübadiləsini təşkil edir, amma eyni zamanda onların öz ölkələrində fəaliyyətini təşviq edən mexanizmlər yaradır. Azərbaycanda isə bu sahədə nə dövlət proqramı, nə də sistemli plan mövcuddur. Xaricdə təhsil alan gənclərin qayıdışı üçün hər hansı stimullaşdırıcı siyasət həyata keçirilmir.

Nəticədə, dəyişəcək olan budur ki, gənclərin ölkədən axını davam edəcək, əmək bazarında ixtisaslı mütəxəssis çatışmazlığı daha da artacaq, ölkənin intellektual potensialı zəifləyəcək. Dəyişməli olan isə yanaşmadır. Əgər ölkədə ali təhsil müasir tələblərə uyğunlaşdırılmasa, əməkhaqları artırılmasa, şəffaf və ədalətli karyera yüksəlişi imkanları yaradılmasa, gənclərin böyük əksəriyyəti ölkədən gedəcək. Elm və Təhsil Nazirliyi bu istiqamətdə nə maarifləndirmə aparır, nə də real proqramlar təqdim edir. Nazirliyin proqnozları yoxdur, gənclərin gələcəyi ilə bağlı hər hansı strateji plan mövcud deyil. Sadəcə rəqəmlər açıqlanır, amma bu rəqəmlərin arxasında duran səbəblərin aradan qaldırılması istiqamətində addımlar atılmır.

Əslində isə ölkə üçün ən böyük sərvət insan kapitalıdır. Əgər bu kapital ölkədən çıxırsa və başqa dövlətlərin inkişafına xidmət edirsə, bu, milli təhlükəsizlik problemi səviyyəsində ciddi məsələdir. Ona görə də Azərbaycan üçün beyin axınının qarşısını almağın yeganə yolu təhsilin keyfiyyətini yüksəltmək, əmək bazarını rəqabətqabiliyyətli etmək, gənclərin azad mühitdə işləməsini və inkişafını təmin etməkdir. Əks halda, yaxın illərdə Azərbaycanın ən yaxşı beyinləri yalnız xarici universitetlərdə və şirkətlərdə öz potensialını reallaşdıracaq, ölkə isə getdikcə intellektual resurslardan məhrum olacaq. Hesab edirəm ki, bu mənzərə təkcə təhsil sahəsinin yox, ümumilikdə dövlət siyasətinin nəticəsidir. Amma təəssüf ki, Elm və Təhsil Nazirliyi bu istiqamətdə heç bir ciddi konsepsiya ortaya qoymur, gənclərin miqrasiyası barədə cəmiyyətə aydın məlumat vermir və ən əsası, gələcək üçün real proqnoz hazırlamır. Bu isə göstərir ki, gənclərin ölkədə qalması üçün aidiyyəti qurumların əlində hazırda nə planı, nə də iradəsi var".

*Ayşən Vəli*

## ELAN

Yeni Azərbaycan Partiyası tərəfindən Qabil Sabir oğlu Mehdiyevə verilmiş 479736 nömrəli üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## İpoteka krediti götürmək istəyənlər maliyyə imkanlarını düzgün qiymətləndirməlidir



İpoteka krediti almaq istəyən vətəndaşlar ilk növbədə maliyyə imkanlarını düzgün qiymətləndirməli və gəlirlərinə uyğun addım atmalıdırlar. İpoteka çox uzunmüddətli öhdəlikdir və bu müddət ərzində vətəndaşın maliyyə sabitliyi ən mühüm şərtlərdən biridir. Əgər aylıq gəlir ipoteka ödənişini qarşılamağa kifayət etmirsə, həmin şəxs gələcəkdə ciddi maliyyə çətinlikləri ilə üzləşə bilər". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Asif İbrahimov deyib.

Onun sözlərinə görə, ipoteka krediti götürmək istəyən şəxs ilk növbədə rəsmi gəlirini sənədləşdirməli və bankın tələblərinə uyğun gəlməlidir. Çünki banklar yalnız rəsmi mənbələrdən daxil olan gəlirləri qəbul edirlər. Bundan əlavə, ilkin ödəniş məsələsi də çox vacibdir. Azərbaycanda ipoteka proqramlarının əksəriyyəti mənzilin dəyərinin ən azı 10-30 faizinin əvvəlcədən ödənilməsini tələb edir: "İpoteka kreditləri üzrə seçim edərkən vətəndaşlar faiz dərəcələrinə, ödəniş müddətinə və əlavə xərclərə diqqət yetirməlidirlər. Dövlət xətti ilə verilən güzəştli ipotekalar daha sərfəlidir, lakin onlara müraciət üçün müəyyən şərtlər mövcuddur. Kommersiya ipotekaları isə daha əlçatan olsa da, onların faizləri yüksəkdir və uzunmüddətli perspektivdə əlavə maliyyə yükü yarada bilər. İpoteka krediti götürməzdən öncə risklər də nəzərə alınmalıdır. Məsələn, iş yerinin dəyişməsi, gəlirin azalması və ya gözlənilməz xərclər borcun qaytarılmasını çətinləşdirə bilər. Buna görə də, vətəndaşlar ipotekaya daxil olmadan əvvəl sabit iş imkanlarını, gələcək ailə büdcəsini və uzunmüddətli maliyyə perspektivlərini qiymətləndirməlidirlər. Nəticə olaraq, ipoteka krediti vətəndaş üçün mənzil əldə etməyin effektiv yoludur, amma düzgün planlama, maliyyə savadlılığı və gəlirlərin real qiymətləndirilməsi olmadan bu öhdəlik ciddi problemlərə gətirib çıxara bilər.

*Ziya Hikmətoğlu*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000